www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 dekabr 2017-ci il Cümə № 251 (6865) Qiyməti 60 qəpik

## Xəbər

**Dustaq ailələrinin gözlədiyi ay gəldi - siyahılar Əfv Komissiyasında!**

yazısı səh.3-də

## Gündəm

**Metroda gediş haqları artırılacaq - ilginc gəlişmə**



Hesablama Palatası 2018-ci ildə "Bakı Metropoliteni"nə ayrılmış 45 milyon manat subsidiyaya qarşı çıxdı; **ekspert:** "Gediş haqqının artırılması üçün zəmin hazırlanır"

yazısı səh.10-da

**Eldar Mahmudov 2018-ci ili həbsdə qarşılaya bilər**

yazısı səh.12-də

**Hökumət İlqar Məmmədovla bağlı izahat verdi - AŞ 4 gün sonra nə qərar verəcək?**

yazısı səh.3-də

**Azərbaycan sərhədində terror təhlükəsi - şok xəbərdarlıq**

yazısı səh.5-də

**İki xalq artistinin məhkəmədə "şortik" qalmaqalı**

yazısı səh.10-da

**İntihar edən polkovnikin əmlakları müsadirə olundu**

yazısı səh.7-də

**Yağın qiyməti ucuzlaşmaq əvəzinə bahalaşır - əks prosesin səbəbi**

yazısı səh.14-də

**General poqonu sökülən Elçin Quliyevin cəzası: 10 il 6 ay həbs, əmlakı müsadirə...**

yazısı səh.7-də

**Şəhid qızını maşınla öldürən yeniyetmə həbs edildi, atası coşdu**

yazısı səh.12-də

**Qeyri-rəsmi məşğulluqla mübarizə başlayır - Əli Əhmədov təfərrüatı açıqladı**

yazısı səh.13-də

**Azərbaycan-Türkiyə-Pakistan hərbi ittifaqına doğru - yeni "Yol xəritəsi"**

yazısı səh.5-də

# AZƏRBAYCAN OLİQARXLARI VAR-DÖVLƏTİNİ KREMLİN DÜŞMƏNİNƏ ETİBAR EDİR

Bu ilin iyununda NATO-ya üzv olan Monteneqronu cəlbedici edən nədir? Bu kiçik dövlətdə 35 min avroluq əmlak alana il ərzində ölkədə müvəqqəti yaşamaq hüququ verilir; bu səbəbdən əmlak ötən ilə nisbətən 8,68% faiz artıb




yazısı səh.7-də

# Tehrandan Bakıya pislik - Ermənistan "sülhün carçısı" adlandırıldı

İran XİN başçısı İrəvanda işğalçı ölkəni mədh edib göylərə qaldırdı; bəs İran ali dini liderinin Qarabağ bəyanatı necə olsun? **Azərbaycandan etiraz:** "Bu, çox böyük siyasi səriştəsizlik və həyasızlıq həddinə çatan bir davranışdır..."

yazısı səh.6-da



*Azər Həsrət:* **"Bir videom var, onu tapıb ortaya qoyurlar" - tanınmış jurnalistdən hadisə kimi açıqlamalar**

yazısı səh. 8 və 9-da



**Putinin hərbi ittifaqının sammitində Qarabağ təxribatı**

yazısı səh.4-də



**Cahangir Hacıyevi tam izolyasiyada saxlayırlar - vəkili danışır**

yazısı səh.12-də




## OPEK-in iclası başladı

**Xəbər verdiyimiz kimi, noyabrın 30-da Avstriyanın paytaxtı Vyana şəhərində OPEC+ ölkələrinin nazirlərinin 3-cü iclası keçiriləcək. Azərbaycanın energetika naziri Pərviz Şahbazov AzərTAc-a iclasla bağlı fikirlərini bildirib.**

Nazir deyib ki, Azərbaycan prezidentinin tapşırığı ilə iştirak etdiyi görüşdə dünya neft bazarında tarazlığın və neftin qiymətinin artmasının təmin edilməsi məqsədilə aparılan məsləhətləşmələrdə ölkəmizin mövqeyini təmsil edəcək. Qeyd edib ki, neft hasilatının azaldılması haqqında razılaşmanın əldə olunmasından artıq bir il keçib. 2016-cı il noyabrın 30-da OPEC ölkələri arasında əldə edilən razılaşmaya həmin ilin dekabr ayında bir qrup qeyri-OPEC ölkəsi də qoşulub. "Bir il ərzində aparılan müşahidələr və əldə olunan nəticələr nümayiş etdirir ki, hasilatın azaldılmasına dair razılaşma çox vaxtında qəbul edilmiş və məhsuldar bir qərar olub", - deyə P.Şahbazov vurğulayıb.

Azərbaycanın energetika naziri qeyd edib ki, bu gün də hasilatın azaldılmasına dair razılaşmanın nəticələrinin dünya bazarlarına təsirini görmək mümkündür. Ötən dövr ərzində dünya bazarlarında xam neftin qiyməti müəyyən yüksəlişə nail olub və bu meyil davam etməkdədir. Eyni zamanda "qara qızıl"ın satış qiyməti də sabitləşib və dünya bazarlarında rezervlər yarıyadək azalıb. Bütün bunlar mühüm göstəricilərdir ki, bu razılaşma gələcəkdə də davam etdirilsin.

Nazir həmçinin deyib ki, həmin mövqe eyni zamanda bu gün keçiriləcək OPEC+ görüşündə iştirak edən bir çox ölkələrin mövqeyi ilə üst-üstə düşür və yaxın gələcəkdə bu təşəbbüsə yeni dövlətlərin də qoşulması ehtimalı böyükdür. Bu razılaşmaya qoşulan dövlətlərin sayı nə qədər çox olarsa, həmin razılaşmanın səmərəsi və məhsuldarlığı bir o qədər yüksək olacaqdır.

Azərbaycanın mövqeyinə toxunan energetika naziri qeyd edib ki, görüşdə ümumi fikir əldə olunduğu təqdirdə ölkəmiz də bu prosesi dəstəkləyəcək.




## Azərbaycan və BVF məsləhətləşmələrə başlayır

**Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycan üzrə rəhbəri Məhəmməd əl-Qorçinin başçılığı ilə fondun rəsmi missiyası Bakıya gəlib. BVF-nin Bakıdakı nümayəndəliyindən verilən məlumata görə, missiyanın səfərində məqsəd Azərbaycan hökuməti ilə BVF Nizamnaməsinin IV maddəsi üzrə məsləhətləşmələr aparmaqdır.**

Həmçinin Azərbaycanın dövlət büdcəsi layihəsi, iqtisadi islahatlar və makroiqtisadi proqnozlar müzakirə olunacaq.

Missiya dekabrın 14-dək Bakıda olacaq.

## Binəqədi şosesində hərəkət məhdudlaşdırılır



**Yeni asfalt-beton örtüyünün döşənməsi işləri ilə əlaqədar olaraq noyabrın 30-dan dekabrın 1-nə keçən gecədən etibarən Binəqədi şosesinin Binəqədi qəsəbəsindən "4 yol" deyilən əraziyədək olan hissəsində avtonəqliyyat vasitələrinin hərəkəti hissə-hissə qismən məhdudlaşdırılacaq.**

"Azəravtoyol" ASC-dən virtualaz.org-a verilən məlumata görə, sözügedən ərazi üzrə hərəkətin məhdudlaşdırılması qısa müddətdə, yəni 1-3 dekabr tarixlərində baş tutacaq.

Bu müddət ərzində asfalt örtük döşənən ərazilər boyu hərəkət hissə-hissə bərpa olunacaq.

# Avropa Məhkəməsi "erməni soyqırımı"nı inkar etmək hüququnu ikinci dəfə dəstəkləyib

**Noyabrın 28-də Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) "Mercan və digərləri İsveçrəyə qarşı" (Mercan and others v. Switzerland) işi üzrə "Doğu Perinçek İsveçrəyə qarşı" işi üzrə (Perincek v. Switzerland (no. 27510/08)) çıxardığı hökmə bənzər qərar çıxarıb, yəni "söz azadlığı hüququnu", bu halda "erməni soyqırımı"nı inkar etmək hüququnu dəstəkləyib.**



Türkiyə İşçi Partiyasının lideri Doğu Perinçek 2005-ci ildə İsveçrədə müxtəlif konfranslarda 1915-ci ildə Osmanlı Türkiyəsində erməni soyqırımı həyata keçirildiyi haqqında iddiaların əsassız olduğunu bəyan edib, bunu "beynəlxalq yalan" adlandırıb. "İsveçrə-Ermənistan" Assosiasiyası bununla əlaqədar 2005-ci ilin iyulunda İsveçrədə məhkəməyə şikayət verərək, Perinçekə qarşı cinayət işi açmağı tələb edib.

2007-ci il martın 9-da Lozanna məhkəməsi Perinçeki irqi ayrı-seçkilikdə təqsirli bilib. 2008-ci il iyunun 10-da Perinçek AİHM-yə müraciət edib. 2016-cı il oktyabrın 15-də Strasburqda Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) İsveçrə hökumətinin Doğu Perinçekin "söz azadlığı hüququnu" pozduğu barədə hökm çıxarıb.

Məhkəmənin qərarının yekun qərar olduğu qeyd edilirdi. 2010-cu ildə İsveçrə federal məhkəməsi aşağı instansiya məhkəməsinin 3 türkü - Ali Mercan, Hasan Kemal və Etem Kayalının irqi ayrı-seçkilikdə və erməni soyqırımını inkar etməkdə təqsirli bilən və 4500 və 3600 frank ölçüsündə cərimə ödənilməsi barədə 2008-ci il tarixli qərarını qüvvədə saxlayıb. Bununla əlaqədar olaraq onlar AİHM-ə iddia ərizəsi ilə müraciət ediblər *(Mercan and others v. Switzerland).*

Avropa Məhkəməsinin bu iş üzrə hökmü 2017-ci il noyabrın 28-də elan edilib və növbəti dəfə "söz azadlığı hüququnu" dəstəkləyir. Bundan başqa, AİHM İsveçrə hökumətinin iddiaçılara 4988 avro ölçüsündə kompensasiya və xərcləri, həmçinin 25 156 avro və məhkəmə xərclərini ödəməli olduğu haqqında hökm çıxarıb.

❑ **contact.az**



## Bakı qəbiristanlıqlarında yer çatışmazlığı yarana bilər

**Nazirlər Kabineti "Məzarlıqlar haqqında" qanun layihəsinə baxdıqdan sonra yeni ayrılacaq məzarlıqlar və insanların dəfn mərasimləri və s. məsələlər həmin qaydalara uyğun tənzimlənəcək.**

"Trend"in məlumatına görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. M.Qurbanlı bildirib ki, Bakıda çox insan yaşadığı üçün gələcəkdə məzarlıqlarda yer çatışmazlığı yarana bilər. Onun sözlərinə görə, qəbiristanlıqlar üçün yeni yerlərin ayrılması istiqamətində işlər gedir: "Bakı Şəhər İcra Hakimiyyəti bununla bağlı müvafiq tədbirlər görür".

M.Qurbanlı əlavə edib ki, gələcəkdə qaydalar təsdiq edilsə, müvafiq icra hakimiyyəti bununla məşğul olacaq, hətta Dini Komitəyə bəzi məsələlərdə nəzarət funksiyası verilə bilər.




## Zakir Həsənov Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı ilə görüşdü

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı, ordu generalı Hasan Küçükakyüz ilə görüşüb.**

Müdafiə Nazirliyinin saytı bildirir ki, geniş tərkibdə keçirilən görüşdə Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişafı, eləcə də Hərbi Hava Qüvvələri arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub.

İki qardaş dövlətin rəhbərləri və xalqlarımız tərəfindən daim dəstəklənən Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının genişləndirilməsinin vacibliyinin vurğulandığı görüşdə təcrübə mübadiləsi məqsədilə hərbi mütəxəssislərdən ibarət ekspert qruplarının qarşılıqlı səfərlərinin, eləcə də Quru Qoşunları, o cümlədən Hərbi Hava Qüvvələrinin iştirakı ilə keçirilən birgə təlimlərin sayının artırılması və maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

## Dekabrda Bakıda hava necə olacaq?

**Dekabr ayına olan hava proqnozu ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, dekabr ayında havanın orta aylıq temperaturunun iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər yüksək olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi ərazilərdə isə bir qədər çox olacağı ehtimalı var. Bakıda və Abşeron yarımadasında orta aylıq temperaturun 6-8 dərəcə isti (gecələr 4-8, bəzi günlərdə 0-2, gündüzlər 8-13, bəzi günlərdə 3-6 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir.**

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox (norma 24-34 mm) olacağı gözlənilir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

## Artur Rasizadə niyə iclas keçirdi?

**Baş naziri Artur Rasizadənin sədrliyi ilə Nazirlər Kabinetinin növbəti il üçün iş planının müzakirəsinə həsr olunmuş geniş iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidməti bildirir ki, iclasda Azərbaycan prezidentinin 2017-ci il 10 oktyabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni iş qaydasına əsasən, Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş və Azərbaycan Respublikası Prezidentinin aktları ilə ona həvalə olunmuş səlahiyyətlərin icrası və digər tədbirlərin həyata keçirilməsi üçün növbəti ildə görüləcək işlərin qabaqcadan planlaşdırıldığı vurğulanıb.

Bu məqsədlə iclasda növbəti il üçün Nazirlər Kabinetinin iş planına daxil olan təkliflərə baxılaraq müzakirə edilib və Azərbaycan Prezidentinin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nın müvafiq bəndinə əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üzrə illik iş planının təsdiq edilməsi barədə qərar qəbul edilib.

## Polis rəisi ağır qəzaya düşdü-iki ölü

**Bakı-Şamaxı-Yevlax yolunda ağır yol qəzası baş verib. APA xəbər verir ki, Ağdaşın Xosrov kəndi ərazisində iki minik avtomobili toqquşub, iki nəfər ölüb, iki nəfər ağır xəsarət alıb.**

90 AP 222 dövlət nömrə nişanlı, "Nissan" və 12 BE-706 dövlət nömrə nişanlı, "VAZ 2106" markalı minik avtomobillərinin toqquşması nəticəsində Ağdam rayonundan olan məcburi köçkün və Tərtərdə məskunlaşan 2015-ci il təvəllüdlü Sehirli Cihan Habil qızı, Ağdaşın Ərəb kənd sakini, 1957-ci il təvəllüdlü Məhərrəmova Tehranə Allahverdi qızı ölüb.

Qəza nəticəsində Ucar rayon Polis Şöbəsinin rəisi, Qəbələ rayon sakini, 1966-cı il təvəllüdlü Abdıyev Etibar Tofiq oğlu və sürücüsü Raqil adlı polis serjantı müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Onlar Ağdaş rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Polis şöbəsinin rəisi, polkovnik Etibar Abdıyevin qollarının sındığı və döş qəfəsinin əzildiyi, sürücüsünün isə yüngül xəsarət aldığı bildirilir.

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat şöbəsi tərəfindən araşdırma aparılır.

YENİ MÜSAVAT
N 251 (6865) 1 dekabr 2017

# Hökumət İlqar Məmmədovla bağlı izahat verdi-AŞ 4 gün sonra nə qərar verəcək?

**REAL funksioneri:** "Əgər Azərbaycan tərəfi Avropa Məhkəməsinin birinci qərarında dərhal azad olunmama tələbinin olmadığını əsas olaraq gətirirsə, bu siyasi yanaşmadır"

**Həbsdəki REAL sədri İlqar Məmmədovla bağlı Avropa Şurası Nazirlər Komitəsinin Azərbaycan hökumətinə noyabrın 29-na qədər verdiyi vaxta, nəhayət, rəsmi Bakı tərəfindən cavab verilib. Azərbaycan tərəfin cavabı bir sıra müzakirələrə yol açıb.**



"Azərbaycan hökumətinin AŞ Nazirlər Komitəsinə cavabında deyilir ki, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarında İlqar Məmmədovun dərhal buraxılması ilə bağlı tələb olmadığına görə hökumətin məhkəmə qərarının icra yollarını seçmək ixtiyarı var. Əlavə olunub ki, hökumət məhkəmənin İlqar Məmmədovla bağlı qərarına uyğun olan gərəkli tədbirləri görəcək", - REAL hərəkatının İdarə Heyətinin üzvü Erkin Qədirli facebook səhifəsində yazıb.

Göründüyü kimi, hakimiyyət Avropa Məhkəməsinin qərarında dərhal azadlığa buraxılma tələbinin olmadığını əsas arqument kimi irəli sürür. Bu da Avropa Şurası tərəfindən qənaətbəxş cavab kimi qəbul edilməyəcəyi ilə bağlı ehtimalları artırır. Çünki indiyə qədər REAL rəhbəri ilə bağlı nüfuzlu beynəlxalq qurumların verdiyi bəyanatların, qəbul etdiyi qərar və qətnamələrin hər birində vicdan məhbusunun azad edilməsi tələbi yer alır. Bütün bunlar Nazirlər Komitəsinin əvvəlcədən elan etdiyi kimi, Azərbaycanın Avropa Konvensiyasının 46.4 maddəsi ilə üzərinə götürdüyü öhdəliyi yerinə yetirib-yetirməməsi məsələsi üzrə dekabrın 5-də Avropa İnsan Haqları Məhkəməsinə müraciət etmək niyyətini həyata keçirə biləcəyi ehtimallarını artırır.

**İ.Məmmədovun vəkili Fuad Ağayev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Avropa Şurası Nazirlər Komitəsinin çıxardığı ilk qərardan sonra 2014-cü ilin dekabrından başlayaraq, İlqar Məmmədovun hər il dərhal yubanmadan azad edilməsi tələbi öz əksini tapıb:** "Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrasına nəzarət bilavasitə məhkəmənin özündə deyil, məhz Nazirlər Komitəsinin üzərindədir. Həmin qərarların icrası ilə bağlı tələblər də bu qurum tərəfindən üzv dövlətlərə qarşı yönəldilir. Nəzərə alaq ki, İlqar Məmmədovun konvensiyasının beşinci maddəsi ilə azadlıq hüququnun pozulması konvensiyanın 18-ci maddəsi ilə birgə götürüldükdə müəyyən olunub. Buradan müəyyən olur ki, İlqar Məmmədovun azadlığının tələbi üçün hər cür hüquqi əsaslar var. Azərbaycan hökuməti bu şəkildə üzərinə götürdüyü öhdəliklərin icrasından imtina edirsə, yəqin ki, Nazirlər Komitəsi xəbərdarlığında yazdıqlarına uyğun olaraq, Avropa Məhkəməsinə Azərbaycanın üzərinə götürdüyü beynəlxalq hüquqi öhdəliklərin icra edib-etməməsinə dair sorğu göndərəcək. Azərbaycan hökumətinin məlum cavabına və nə üçün belə cavab verdiyinə gəlincə, onu deyə bilərəm ki, hakimiyyətin qərarlarını şərh etmirəm, xüsusilə bu tərzdə qərarlarını. Dekabrın 5-nə qədər vaxt müəyyən edilib, Nazirlər Komitəsinin icrası ərəfəsidir. Məsələyə orada baxılacaq".

**REAL hərəkatının İdarə Heyətinin Üzvü Azər Qasımlı Azərbaycan hökumətinin Nazirlər Komitəsinə verdiyi cavabın hələ də rəsmi şəkildə dərc olunmadığını söylədi:** "Bizim əlimizdə o sənəd də yoxdur. Sadəcə, öz mənbələrimiz vasitəsilə cavabı əldə etmişik. Bildiyimiz qədəri ilə 7 səhifəlik bir cavabdır. Hazırda o cavab əlimizdə yoxdur. 7 səhifəlik cavabı nə Azərbaycanda, nə də xaricdə heç bir media orqanı dərc etməyib. Hamı Erkin bəyin yazdığı statusa əsaslanır. Onun statusuna istinadən məsələyə yanaşsaq, məsələ belədir, əgər Azərbaycan tərəfi Avropa Məhkəməsinin birinci qərarında dərhal azad olunmama tələbinə istinad edirsə, bunun olmadığını əsas olaraq gətirirsə, buna görə qərar verdiyini iddia edirsə, hesab edirəm ki, bu, siyasi yanaşmadır, hüquqi yanaşma ola bilməz. Yeri gəlmişkən, Avropa Məhkəməsinin İlqar Məmmədovla bağlı çıxardığı ilk qərarda konvensiyasının 6 və 18-ci maddələrinin pozulması aşkar edilib. Burada İlqar Məmmədovla bağlı Azərbaycanda keçirilən məhkəmələrdə ədalətsiz qərarların verildiyi, bu qərarların tamamilə siyasi olduğu, siyasi rəqib olaraq hakimiyyəti tənqid etdiyi üçün həbs olunduğu qeyd olunub. Bu da öz-özlüyündə onun günahsız olduğu və azadlığa buraxıldığı anlamına gəlir. Ona görə düşünürəm ki, hakimiyyətin cavabında gətirilən dəlil hüquqi deyil, siyasidir. Onsuz da aydındır ki, İlqar Məmmədov azadlığa çıxmalıdır. Yeri gəlmişkən, ona təzminat da ödənilməli idi. Həmin 25 min avro təzminat da artıq ödənilib. Bunun özü nonsensdir. Necə ola bilər ki, bir şəxsin hüquqlarının pozulması ilə bağlı təzminat ödənilməsi qərarı verilir, amma azadlıq tələb olunmur, təbii ki, tələb olunur. Bu tələb maddələrin pozulmasından irəli gəlir. Hüquq və siyasətin dili fərqlidir. Bunu mütləq nəzərə almaq lazımdır. Hökumətin siyasi cavabından o hasil olur ki, iqtidar İlqar Məmmədovu hələ bir müddət də həbsdə saxlamaq istəyir. Avropa Şurası Nazirlər Komitəsinin tələbi ilə hakimiyyət onu azad etmək fikrində deyil. Düşünürük ki, qarşıdan bayramlar gəlir. Ola bilsin ki, hakimiyyət İlqar Məmmədovu Avropa Şurasının tələbi ilə yox, yaxud Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı ilə deyil, məhz əfv, yaxud Milli Məclis tərəfindən qəbul edilən və prezident tərəfindən təsdiq olunan yeni qanunla azad etmək istəyir. Açığı, məsələnin bu cür həll olunacağını gözləyirəm, hüquqi deyil, siyasi müstəvidə məsələ həll olunacaq".

❑ **Cavanşir ABBASLI**

# Dustaq ailələrinin gözlədiyi ay gəldi-siyahılar Əfv Komissiyasında!

**Səadət Bənəniyarlı:** "Siyahımızı Avropa Şurasının qəbul etdiyi standartlara əsasən hazırlamışıq"

**Bu gün ilin son ayı başladı. Qarşıdan Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü gəlir. Adətən prezident İlham Əliyev bu kimi bayram günlərində əfv sərəncamı imzalayır və onlarla məhbus azadlığa çıxır. Bu il də dustaq ailələri dekabr ayında əfv sərəncamının imzalanacağına ümid edirlər. Gözlənilir ki, imzalanacaq əfv sərəncamında siyasilərin də adları olacaq.**

Onlardan REAL sədri İlqar Məmmədov, AXCP-dən Asif Yusifli, Məmməd İbrahim, Seymur Həzi, vəkil Əliabbas Rüstəmov və NİDA-çı İlkin Rüstəmzadə kimi siyasilərin adlarını qeyd edə bilərik. Bu şəxslərlə yanaşı sabiq səhiyyə naziri Əli İnsanovun da azad edilməsi gözlənilir.

Xatırladaq ki, 2017-ci il aprelin 26-da Bakının Qaradağ Rayon Məhkəməsinin hökmü ilə Ə. İnsanov yenidən 7 il 5 gün müddətinə azadlıqdan məhrum edilib. Lakin sabiq nazir bu cəza ilə razılaşmayaraq, Ali Məhkəməyə kasasiya şikayəti verib. Ali Məhkəmə isə onun kasasiya şikayətinə baxılmasını qeyri-müəyyən müddətə qədər təxirə salıb. Bu kimi faktorlara münasibət bildirən ekspertlər Əli İnsanovun da həbsdən azad edilməsini mümkün sayırlar.



Onu da qeyd edək ki, Azərbaycan hakimiyyəti siyasi məhbuslarla bağlı son zamanlar nisbətən yumşaq siyasət aparır. Məsələn, noyabrın 29-da Ali Məhkəmədə keçirilən prosesdə NİDA hərəkatının həbsdə olan üzvü Elgiz Qəhrəmanın cəzası 5 il 6 aydan 3 ilə endirilib.

Bununla yanaşı, son zamanlar Avropa İttifaqı rəhbərliyi və Avropa Şurası da Azərbaycan hakimiyyətinə qarşı ölkədəki insan haqlarının qorunması və siyasilərin həbsdən azad edilməsi ilə bağlı təzyiqləri artırıblar. Ehtimal olunur ki, seçki ili olan 2018-ci ilə hakimiyyət siyasi məhbusların əksəriyyətini azad edərək keçəcək və beynəlxalq qurumlara bu kimi təzyiq arqumentlərini verməyəcək.

Hakimiyyət nümayəndələri ölkədə siyasi məhbus olmadığını söyləsələr də, insan haqlarının müdafiəsi ilə məşğul olan təşkilatlar siyasi məhbus siyahısı hazırlayıblar. Lakin bu siyahı bəzi hüquq müdafiəçiləri tərəfindən birmənalı qarşılanmır. Belə ki, Siyasi Məhbusların Müdafiə Mərkəzinin bu ilin aprel ayında tərtib etdiyi siyahıda 162 nəfərin adı var. Bir çox hüquq müdafiəçiləri isə bildirirlər ki, bu siyahı müəyyən məqsədlər üçün şişirdilib.

**Müdafiə mərkəzinin nümayəndəsi olan jurnalist Əvəz Zeynallı "Yeni Müsavat"a bildirib ki, bu il əfv sərəncamının imzalanacağını gözləmir:** "Əfv birbaşa olaraq prezidentin səlahiyyətində olan humanist aktdır. Çox güman ki, bu il əfv verilməyəcək. Yəqin ki, əfv Novruz bayramı ərəfəsinə qaldı. Çünki əfv verilən zaman Əfv Komissiyası əvvəlcədən bir neçə dəfə toplanırdı. İndi isə komissiya da toplaşmayıb. Buna baxmayaraq, biz öz siyahımızı hazırlayıb, bütün qurumlara göndərmişik. Çox istəyirik ki, siyasi məhbusların hamısı azadlığa çıxsın. Ancaq bunun üçün Əfv Komissiyası toplanmalı və siyahı hazırlamalıdırlar. Hələ ki bunu müşahidə etmirik. Bizim siyahıya gəlincə isə qeyd edim ki, orada adına birmənalı yanaşılmayan siyasi məhbus yoxdur. Siyasi məhbus siyahısı dünyanın beynəlxalq təşkilatları tərəfindən də qəbul edilmiş bir siyahıdır".

**Ə. Zeynallı düşünür ki, Əli İnsanov tezliklə azadlığa buraxılmayacaq:** "Kimin azadlığa çıxacağı haqqında öncədən proqnoz vermək olmaz. Konkret mənim fikrimə gəlincə isə Əli İnsanov barəsində optimist deyiləm. Əli İnsanovun durumu çox çətindir və buna görə də onun azadlığa buraxılması məsələsi mənim üçün çətin görünür. Ancaq Avropa Şurasında və digər beynəlxalq təşkilatlarda Azərbaycanın adının mənfi istiqamətdə çox hallanması İlqar Məmmədov və Əli İnsanovun üzərinə bir işıq sala bilər. Bəzən hakimiyyətin gedişlərini yumşalan siyasət kimi qiymətləndirirk. Ancaq nəticə göstərir ki, beynəlxalq təşkilatların təzyiqlərinin Azərbaycan hakimiyyətinə təsiri sıfır dərəcəsindədir. Buna görə də biz yenə də hakimiyyətin özünün iradəsindən asılıyıq".

**İnsan haqları üzrə işçi qrupunun üzvü hüquq müdafiəçisi Səadət Bənəniyarlı isə "Yeni Müsavat"a bildirib ki, onlar əfv olacağına ümidlidirlər:** "Biz siyahımızı hazırlayıb, Əfv Komissiyasına təqdim etmişik. Gözləyirik ki, imzalanacaq əfv sərəncamında bizim siyahıdan da bir sıra insanların adları olsun. Siyahımızı Avropa Şurasının qəbul etdiyi standartlara əsasən hazırlamışıq. Burada yalnız həmin kateqoriyaya aid olan adamlar var. Kimlərisə əlavə olaraq siyahıya daxil etməyi doğru hesab etmirəm. Haqlarında məhkəmədə müəyyən pozuntular olubsa, təbii ki, bu insanlar bütün instansiyaları keçərək, Avropa Məhkəməsinə müraciət edə bilərlər. Ona görə də bütün bu kimi insanların da hamısını siyasi məhbus kateqoriyasına aid etməyi doğru saymıram. Əli İnsanova gəlincə isə deyim ki, çox istərdim ki, o, azadlığa buraxılsın. Bunu da gözləyirəm. Çünki Əli İnsanov kifayət qədər məhkum həyatı yaşamış insandır. Ümid edirik ki, yaxşı olacaq".

**Əfv Komissiyasından isə bildirilib ki, katibliyə davamlı olaraq müraciətlər daxil olmaqdadır:**"Müraciətlər məhkumlar, onların vəkilləri, ailə üzvləri tərəfindən daxil olur. Bizə edilən bütün müraciətlər araşdırılır, müvafiq rəylər alınır, təhlillər aparılır. Həmçinin zərərçəkmiş şəxsin narazı olub-olmadığı da araşdırılır".

Qeyd edək ki, əfvetmə Azərbaycan Respublikası məhkəmələri tərəfindən məhkum edilmiş şəxslərə və ya başqa dövlətlərin məhkəmələri tərəfindən məhkum olunmuş və cəzalarını Azərbaycanda çəkən ölkə vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə tətbiq edilə bilər.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 251 (6865) 1 dekabr 2017

**Noyabrın 30-da Beynəlxalq Mətbuat Mərkəzində "İslam həmrəylinin gücləndirilməsində medianın rolu" mövzusunda tədbir keçirilib. İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv Dövlətlərin Jurnalistləri Assosiasiyası və Beynəlxalq Avrasiya Jurnalistləri Fondunun təşkil etdiyi tədbirdə Prezident Administrasiyasının, XİN-in, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi nümayəndələri, bir sıra müsəlman ölkələrinin Azərbaycandakı səfir və diplomatları, Misirin aparıcı media orqanlarının rəhbərləri, o cümlədən yerli media rəhbərləri iştirak edib.**

# Ərəb jurnalistlər Azərbaycanda İslam həmrəyliyinə heyran qaldılar

## Bakıda misirli jurnalistlərin iştirakı ilə İslam həmrəyliyi və media mövzusunda tədbir keçirildi



İƏT-ə üzv Dövlətlərin Jurnalistlər Assosiasiyasının sədri Fazil Abbasov 2017-ci il İslam Həmrəyliyi ilində həyata keçirilən tədbirlər, onların əhəmiyyətindən danışıb. Müsəlman ölkələrində məzhəb ayrılığı və siyasi səbəblərə görə çoxsaylı münaqişələrin olduğunu qeyd edən F.Abbasov bu kimi bölücülüyün düşmənlərin əlinə fürsət verdiyini bildirdi.

F,Abbasov dedi ki, prezident İlham Əliyev 2017-ci ili İslam Həmrəyliyi İli elan edib. İl ərzində ölkəmizdə islam həmrəyliyini təbliğ edən silsilə tədbirlər keçirilib. Buna ən parlaq misalın isə Dördüncü İslam Həmrəyliyi Oyunları olub.

İslam həmrəyliyinin möhkəmləndirilməsində medianın mühüm rol oynaya biləcəyini qeyd edən F.Abbasov bildirib ki, İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistlər Assosiasiyası İslam ölkələrinin media qurumları ilə əməkdaşlıq etməyə hazırdır.

Daha sonra çıxış edən Beynəlxalq Avrasiya Fondunun prezidenti Umud Mirzəyev bildirib ki, İslam bizi birləşdirən dəyərdir. U. Mirzəyev keçirilən tədbirin əhəmiyyətini yüksək qiymətləndirib. O vurğulayıb ki, tədbir Misir jurnalistləri ilə Azərbaycan jurnalistləri arasında möhkəm əməkdaşlığın əsasını qoyacaq.

**Tədbirdə çıxış edən PA-nın ictimai-siyasi şöbəsinin məsul əməkdaşlı Bəhruz Həsənov bildirib ki, Azərbaycan öz tarixi və maddi-mənəvi irsinə görə Misirdən geri qalmır. O qeyd edib ki, Azərbaycanla Misirin həm İƏT, həm də ikitərəfli əməkdaşlıq çərçivəsində media sahəsində əlaqələrinin qurulması olduqca vacibdir:** "Hesab edirəm ki, bu gün keçirilən tədbir ölkələrimiz arasında media sahəsində əlaqələrdə yeni mərhələnin başlanğıcı olacaq".

**PA əməkdaşı Azərbaycanda tarix boyu dini həmrəylik olduğunu bildirdi:** "Birmənalı şəkildə deyə bilərik ki, Azərbaycan İslam həmrəyliyi modelini yarada bilib və bu model diqqətlə öyrənilməlidir. Azərbaycanda fərqli məzhəblərə məxsus insanların birgəyaşayışı İslama terror dini kimi baxanlara ən yaxşı cavabdır. Bu il ölkəmizdə "İslam Həmrəyliyi İli"nin elan olunması həm Azərbaycanda, həm də İslam dünyasında həmrəyliyin möhkəmlənməsinə töhfə verir".

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədli Azərbaycanın zəngin birgəyaşayış ənənələrindən danışıb, ölkənin bir çox bölgələrində tarixən formalaşmış dinlər və məzhəb arası birliyin bir neçə nümunəsini göstərdi. O, Azərbaycanın sünni və şiə məscidi ayrımı olmayan, hər iki məzhəbin ardıcıllarının məsciddə birgə ibadət etdiyi müsəlman ölkəsi olduğunu qeyd etdi.

Azərbaycanın Küveyt və Misirdə səfiri olmuş, hazırda XİN-in xüsusi tapşırıqlar üzrə səfiri Şahin Abdullayev çıxış etdi. Azərbaycana ərəb-müsəlman ölkələrində xoş münasibətin olduğunu qeyd edən səfir, media ilə yaxından çalışmaq lazım gəldiyini bildirdi. Ərəb ölkələrində də erməni diasporunun olduğunu xatırladan səfir müsəlman ölkələrinin media orqanları arasında əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini söylədi.




Daha sonra çıxış edən Fələstinin Azərbaycandakı səfiri Nasir Əbdül Kərim həm təmsil etdiyi ölkənin, həm də çalışdığı ölkənin hər ikisinin münaqişə yaşadığını, itkilərə məruz qaldığını dedi. Səfir bildirdi ki, müsəlman ölkələrinin bir-biri haqda məlumatlı olması vacibdir. Azərbaycanda dövlət səviyyəsində Fələstinə ciddi dəstək olduğunu xatırladan səfir yeni sosial media dövründə əks-təbliğatların da aparıldığını xatırlatdı. Onun sözlərinə görə, sosial media təbliğatları bəzən media orqanlarına da təsir edin və yanlış xəbərlər, fotomontajlar ciddi mediaya gedib çıxır. O, buna nümunə kimi Fələstinin mərhum lideri Yasir Ərəfatın ermənilərə dəstək verməsi barədə təbliğatı qeyd etdi. Səfir deyir ki, yerli fələstinli keşişlə bağlı foto montaj edilərək Ərəfatın ermənilərə dəstəyi kimi təqdim olunub.

Mərakeş Krallığının səfiri müsəlman mədəniyyətinin digər mədəniyyətləri qoruduğunu, yəhudilərin uzun illər müsəlmanların himayəsində Ədəlüsdə əmin-amanlıqda yaşadığını qeyd edərək, müsəlmanların fərqli inanclar hörmətlə yanaşması ilə bağlı nümunələri sadaladı.

Daha sonra çıxış edən Misirin "Əxbar əl-Yaum" qəzetinin baş redaktoru Rıfat Fayyad Misirdə ötən həftə baş vermiş terror aktından danışdı. Baş redaktor qeyd elədi ki, ibadət edən insanlar hədəfə alınıb. 300-dən artıq insan ölüb, onlardan 30-u uşaqlardır. R.Fəyyad Azərbaycanda sabitliyin və dini tolerantlığın çox yüksək dəyər daşıdığını qeyd elədi.

Çıxış edən digər şəxslər İslam həmrəyliyi, eləcə də bu gün müsəlman aləminin yaşadığı terror və zorakılıqlar, o cümlədən Azərbaycanın İslam Həmrəyliyi işinə verdiyi töhfələrdən danışdılar.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Putinin hərbi ittifaqının sammitində Qarabağ təxribatı

## Müşahidəçilər hesab edir ki, Ermənistan tərəfindən irəli sürülən təxribatçı layihə KTMT prinsiplərinə uyğun deyil

**Noyabrın 30-da Minskdə Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sammiti keçirilib. Bundan əvvəl isə baş katib sammit ərəfəsində üzv ölkələrə səfər etməkdədir.**



Rusiya prezidenti Vladimir Putin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Yuri Xaçaturovu qəbul edib. APA-nın "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, bu, Yuri Xaçaturovun KTMT baş katibi vəzifəsində V.Putinlə ilk görüşü olub. Xatırladaq ki, Yuri Xaçaturov 2017-ci ilin aprelin 14-də KTMT sədri vəzifəsinə təyin edilib.

KTMT-nin sammitində isə Ermənistan ənənəsinə sadiq qalaraq, Qarabağla bağlı növbəti dəfə təxribata əl atıb. Minskdə keçirilən KTMT-nin iştirakçı dövlətlərinin Xarici İşlər Nazirləri, Müdafiə Nazirləri və Təhlükəsizlik Şuralarının katiblərinin birgə iclasında Ermənistan xarici işlər naziri Edvard Nalbəndyan, müdafiə naziri Vigen Sərkisyan və təhlükəsizlik şurasının heyət rəhbəri vəzifəsini icra edən Aram Tananyan iştirak ediblər. Görüşdə KTMT-yə üzv ölkələrin xarici siyasətlərinin əlaqələndirilməsi, hərbi və hərbi-texniki əməkdaşlıq, informasiya təhlükəsizliyi, terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlıqla bağlı məsələlər müzakirə edilib. Birgə iclasda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının daha da təkmilləşdirilməsi ilə bağlı məsələlərə də toxunulub. Ordu.az erməni KİV-lərinə istinadən xəbər verir ki, iclas zamanı Ermənistan nümayəndə heyəti Qarabağ münaqişəsi ilə bağlı növbəti dəfə təxribata əl atıb. Belə ki, nümayəndə heyəti adından çıxış edən Edvard Nalbəndyan həmkarlarına Ermənistanın təşəbbüsü ilə hazırlanmış Qarabağ məsələsi ilə bağlı Kollektiv Təhlükəsizlik Şurasının bəyanat layihəsini təqdim edib. Azərbaycanın bu qurumda təmsil olunmamasından sui-istifadə edən işğalçı ölkə dərhal durumdan yararlanmağa çalışıb. Müşahidəçilər hesab edir ki, Ermənistan tərəfindən irəli sürülən təxribatçı layihə KTMT prinsiplərinə uyğun deyil. Bu baxımdan, layihənin ciddi olaraq nəzərdən keçirilməsi də inandırıcı deyil. Lakin yenə də iclas zamanı növbəti təxribatçı addımların atılması istisna edilmir. Doğrudur, KTMT-də təmsil olunan Qazaxıstan və Belarus kimi ölkələr bir neçə dəfə bu qurumda Azərbaycanın mövqeyini müdafiə edib. Hətta 2016-cı ilin aprelində bu ölkələrin rəhbərləri qurumun İrəvanda keçirilən toplantısını boykot etdilər. Daha sonra Belarus prezidenti Qarabağa qanunsuz səfər edən A.Lapşini Bakıya təhvil verməklə də İrəvana şok yaşadı. Bəs indiki situasiyada nə demək olar, KTMT-də Azərbaycana dost ölkələrin olduğunu deyə bilərikmi?

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a mövzu ilə bağlı bunları söylədi:** "Müşahidələr göstərir ki, buradakı ölkələrdən Belarus, Qazaxıstan hər bir vaxt Azərbaycana qarşı dost mövqeyindən çıxış ediblər. Təbii ki, siyasətdə dost məfhumu çətin anlamdır, lakin ümumi maraqların olması mühüm məsələdir. Baxmayaraq ki, bu münasibətlər Ermənistana və hətta deyərdim Rusiyaya belə xoş gəlmir, ancaq fakt budur. O biri Orta Asiya dövlətləri də bizimlə normal münasibətdədirlər. Əsas məqam da ondan ibarətdir ki, Azərbaycan bu dövlətlərin heç birinin ərazi bütövlüyünü və beynəlxalq qurumlar tərəfindən tanınan suverenliyini, milli və dövlət təhlükəsizliyini təhdid etmir. Əksinə, bu qurumda təmsil olunan Ermənistan Azərbaycanın ərazilərini işğal edib". **A.Nağıyev dedi ki, ayrı-ayrılıqda hər bir dövlət bu işğalçı siyasəti də pisləyir:** "Baxmayaraq ki, rotasiya qaydasında Ermənistan nümayəndəsi qurumun baş katibidir, bu, bizim üçün təhdid ola bilməz. Çünki o, Rusiyasız heç bir qərar qəbul edə bilməz və digər dövlətlər də buna imkan verməz. Bütün bunlara baxmayaraq, Azərbaycan öz müdafiə və təhlükəsizlik konsepsiyasına uyğun olaraq bu dövlətlərlə və qurumla öz balanslı və müstəqil siyasətini yürüdür". Ermənistanın KTMT sammitində Qarabağla bağlı təxribata əl atmasına gəldikdə, politoloq bunu gözlənilən saydı: "Əsas qərardır. Təxribat daima olub və olacaq. Əsas yerdə qalanların mövqeyidir".

❑ **Cavid TURAN**

# Azərbaycan-Türkiyə-Pakistan hərbi ittifaqına doğru - yeni "Yol xəritəsi"

## Üç ölkənin XİN başçıları Bakıda bir araya gəldilər; çoxdan gözlənilən baş verdi...



**Noyabrın 30-da Bakıda Azərbaycan, Türkiyə və Pakistan xarici işlər nazirlərinin ilk üçtərəfli görüşü keçirilib. Toplantıda Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, Türkiyənin xarici siyasət idarəsinin rəhbəri Mövlud Çavuşoğlu və Pakistanın xarici işlər naziri Havaca Məhəmməd Asif iştirak ediblər.**

Görüşün yekunlarına dair Bakı bəyannaməsi qəbul edilib.

Sənəddə ən mühüm məsələ - müdafiə və təhlükəsizlik sahəsinin əhəmiyyətinin vurğulanması, bu sahələrdə fəal əməkdaşlığın inkişafına hər üç dövlətin hazır olduqlarının ifadə edilməsidir. Tərəflər ümumi maraq kəsb edən regional və qlobal məsələlər ətrafında üç qardaş dövlət arasında mütəmadi məsləhətləşmələrin davam etdirilməsi, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində maraqlı və hazırlıqlı olduqlarını bildiriblər. Sənədin sonunda üçtərəfli görüşlərin illik əsasda, əlifba sırası ilə üzv dövlətlərdə müntəzəm olaraq keçirilməsi barəsində razılığa gəlindiyi bildirilir.

**Görüşdən sonra xarici işlər naziri Elmar Məmmədyarov jurnalistlərə açıqlamasında deyib ki, imzalanan Bakı bəyannaməsi gələcək əməkdaşlıq üçün "Yol xəritəsi" rolunu oynayır:** "Siyasi baxımdan ölkələrimiz eyni mövqedədir. İqtisadi və ticari əlaqələrin inkişafının vacibliyini müzakirə etdik. Həmçinin regionda olan münaqişələri müzakirə etdik və bildirdik ki, bunlar sabitlik və təhlükəsizliyə təhdiddir. Hərbi, terrorizmə qarşı mübarizə sahələrində müzakirə apardıq. Müdafiə sahəsində əməkdaşlığımız çox intensivdir. Nəqliyyat əlaqələri müzakirə mövzulardan biridir. Pakistana təklif etdik ki, Azərbaycan və Türkiyənin bu sahədəki imkanlarından yararlansın. Xüsusilə Bakı-Tiflis-Qars dəmir yolu xəttini nəzərdə tuturam. Görüşdə ikitərəfli və üçtərəfli əsasda hava nəqliyyatının bərpasının vacibliyini qeyd etdik. Bu, ölkələr arasında turizm sahəsində böyük imkanlar yaradır. Azərbaycanın 20 faiz torpaqları işğal altındadır. Bu baxımdan müdafiə sahəsinin inkişafı çox vacibdir. Azərbaycan bu yaxınlarda təlim təyyarələrinin alınması üçün Pakistanla müqavilə imzalayacaq".

**Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu isə bildirib ki, Türkiyə və Pakistan təyyarə, digər texnikanı, döyüş gəmilərini istehsal edir. Azərbaycan da həm ixracatçıdır, həm də istehsalı inkişaf etdirmək istəyir:** "Biz bu sahədə bir-birimizi tamamlayırıq. Azərbaycan və Türkiyə təlim təyyarələrini Pakistandan almağı düşünür".

**Pakistanın xarici işlər naziri Xavaca Məhəmməd Asif isə bildirib ki, görüşdə üç ölkə arasında müdafiə sahəsində əməkdaşlıq, ticarət dövriyyəsinin artırılması müzakirə edilib:** "Bu sahədə mövcud olan əməkdaşlığımız üçtərəfli formada inkişaf edə bilər. Azərbaycanla Pakistan arasında birbaşa hava xətti yoxdur. Bunun bərpası ilə əlaqələr daha da güclənəcək. Hər üç ölkə Keşmir, Dağlıq Qarabağ və Şimali Kipr məsələsində eyni mövqeyə malikdir. Hər üç ölkə bu məsələlərin həllində ortaq mövqedən çıxış etməlidir. Qərara gəldik ki, Pakistan, Azərbaycan və Türkiyə olaraq üçtərəfli formatdan daha geniş istifadə edək".

**Politoloq Elşən Mustafayev bildirdi ki, üç dövlətin xarici işlər nazirlərinin Bakıda toplanması bir sıra uğurlu layihələrin yaranmasına zəmin yarada bilər:** "Nazirlərin müzakirə etdikləri məsələlər, müxtəlif sahələrdə əməkdaşlığın üçtərəfli formatda inkişaf etdirilməsi istəkləri ondan xəbər verir ki, böyük ehtimalla bu üç dövlətin başçısının yaxın zamanlarda görüşü baş tutacaq. Türkiyə regionun böyük dövlətidir və onunla hamı hesablaşmağa məcburdur. Pakistan isə öz regionunda iki nüvə dövlətindən biridir və güclü orduya malikdir. Gələcəkdə bu 3 dövlətin hərbi və iqtisadi sahədə müttəfiqliyi Azərbaycanın təhlükəsizliyi baxımından vacib şərtlərdən biri ola bilər. Bu gün Azərbaycan heç bir hərbi blokda təmsil olunmur. Azərbaycan torpaqlarını işğal edən Ermənistan isə Rusiyanın yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsil olunur. O zaman nədən biz özümüzə dost bildiyimiz dövlətlərlə hərbi ittifaq yaratmayaq? Belə bir ittifaq yaranarsa, hər 3 dövlət bundan yalnız fayda götürə bilər".

**Politoloq Əhəd Məmmədli də dedi ki, üçlü formatın Azərbaycana faydaları çox ola bilər:** "Sergey Lavrovun Bakıya son səfəri, Rusiyanın Azərbaycana FSB agentini səfir göndərmək istəyindən sonra, Azərbaycanın Türkiyə və Pakistanla müttəfiqliyin dərinləşməsi, konkretləşməsi artıq bir zərurətə çevrilib. Üstəlik, İran və Ermənistan XİN rəhbərlərinin son görüşündə fars nazirin Ermənistanı regionda sülhün və sabitliyin nümunəsi adlandırması, Azərbaycanın Türkiyə və Pakistanla üçlü müttəfiqlik qurmaq əhəmiyyətini daha da artırdı. Azərbaycanda Türkiyə hərbi bazaları qurulmalıdır. Azərbaycan ordusuna Pakistan hərbi instruktorları dəvət edilməlidir. Üçlü hərbi təlimlər başlamalıdır. Rusiya, İran və Ermənistana göstərilməlidir ki, Azərbaycanın yanında Türkiyə ilə Pakistan var".

❑ Etibar SEYİDAĞA

# Azərbaycan sərhədində terror təhlükəsi - şok xəbərdarlıq

## **Arzu Nağıyev:** "Novikov MDB-nin cənub sərhədi dedikdə Dağıstan və Çeçenistanı nəzərdə tutur"

**"MDB-yə üzv ölkələr üçün terror təhlükəsi İŞİD terror qruplaşması ilə mübarizədə nailiyyətlərə baxmayaraq, yaxın gələcəkdə yenə də aktual olaraq qalacaq". "İnterfaks"ın məlumatına görə, bu barədə MDB-nin Antiterror Mərkəzinin rəhbəri Andrey Novikov bildirib.**



"MDB ölkələrinin təhlükəsizlik sahəsində əməkdaşlığı bu gün onların milli maraqlarına təhdidlərin olduqca sürətli genişlənməsi ilə əlaqədar çox zəruridir. Bu gün yaranmış vəziyyətin təhlili orta statistik vaxtda onun düzələcəyi ehtimalını artırmır. Suriyada İŞİD ilə mübarizədə əldə olunmuş nailiyyətlərə baxmayaraq, terror aktivliyinin Suirya-İraq zonasından MDB-nin cənub sərhədlərinə doğru irəliləməsi mümkündür", - A.Novikov vurğulayıb.

Novikovun bu uyarıcı açıqlamaları MDB ölkələrinin bəzilərində antiterror əməliyyatlarının keçirildiyi bir vaxta təsadüf edir. MDB ölkəsi kimi Azərbaycanın da terror təhlükəsi ilə hər an üzləşə biləcəyi istisna deyil.

**Uzun müddət təhlükəsizlik orqanlarında çalışmış, siyasi şərhçi Arzu Nağıyev Novikovun açıqlamasının yeni bir məsələ olmadığını bildirdi:** "Rusiyanın 89 federal subyektindən 11-i müsəlman inanclıdır və müsəlman ölkələri ilə yaxından əlaqələri var. Bu subyektlərdə Suriya və digər yerlərdə mövcud olan terror təşkilatları ilə əlaqələrin olması barədə faktlar var. Hətta İŞİD-in tərkibində vuruşan qurumların içərisində Rusiyadan çoxsaylı şəxslər iştirak ediblər. O subyektlər də gələcəkdə Rusiyanın sanksiyalarına məruz qala biləcəklərini nəzərə alaraq, hər hansı bir vəsait üçün onlara müraciət edə bilərlər. Suriyada baş verən hadisələr sona yetdikcə, proseslər öz həllini tapmağa doğru getdikcə, onlara biət etmiş şəxslərin geri qayıtması mümkündür. Cənub sərhədi dedikdə Dağıstan və Çeçenistan nəzərdə tutulur, Rusiyanın özündə. Həmin biət etmiş şəxslərin bu yerlərə qayıtdıqdan sonra yenidən həmin qruplaşmalara qoşulmaları istisna deyil. Bu da təbii ki, Azərbaycanın şimal sərhədidir. Biz bu təhlükəni qəbul edir, bu istiqamətdə işlərimizi görürük. Azərbaycan olaraq, Cinayət Məcəlləsinin müvafiq maddələri ilə icra prosesləri həyata keçirilir. Bu istiqamətdə əməliyyat şəraitinə çalışdığımız qədər nəzarət edirik. Eyni zamanda kibercinayətləri ilə bağlı bu qruplaşmaların sosial şəbəkələrdən iştiraklarına qədər nəzarət gücləndirilib. Digər məsələlərdən biri də hazırda MDB məkanında olan Orta Asiya dövlətləridir ki, onların daxillərində "Taliban" və digər terror qrupları ilə əlaqələrin olması barədə faktlar var. Misal olaraq, ötən il Qazaxıstanda, ondan öncə Özbəkistanda və Türkmənistan-İran sərhədində olan məsələləri göstərmək olar. Terrordan heç bir dövlət və qurum sığortalanmayıb. Bu proseslər davam edə bilər. Bu baxımdan Novikovun dediklərində həqiqət var. Sadəcə olaraq, əsas olan terrorçularla necə mübarizə aparmaq, nəzarəti necə gücləndirməkdir. Aydın məsələdir ki, Orta Asiya ölkələrində problemlər kifayət qədər çoxdur. Azərbaycanın şimal, yəni Rusiyanın cənub sərhədində problemlər var. Son vaxtlar məlum olur ki, dini qurumlarda az sayda iştirak edən Belarusda da müəyyən cücərtilər var. Bunun üçün də mübarizə mütləq lazımdır. İnformasiyasız mübarizə isə qeyri-mümkündür. Bu baxımdan informasiya mübadiləsi də çox vacibdir, istər MDB məkanı, istərsə də, digər dövlətlər olsun".

**Təhlükəsizlik eksperti bildirdi ki, Gürcüstan və digər dövlətlərdə həyata keçirilən antiterror əməliyyatlari terror təşkilatlarına biət etmiş şəxslərin geri qayıtdıqlarını göstərir:** "Onlar qayıtmasalar da, tərəfdarları sakit dursalar da, hər an təhlükə mənbəyi olduqları məlumdur. Bu istiqamətdə mümkün olan bütün yollardan istifadə etmək lazımdır ki, onların qarşısı alınsın. Terrorçuların ola bilər ki, yerləri, adları dəyişsin, amma məramları, məqsədləri dəyişmir. Bunun qarşısını almaq üçün xüsusi xidmət orqanları, hətta vətəndaşlar hər an hazırlıqlı olmalıdırlar. Düşünmürəm ki, MDB ölkələri və digər dövlətlərlə müqayisədə Azərbaycan üçün təhlükəli olan azərbaycanlı terrorçuların sayı çox olsun. Əgər bir milyard 200 milyon müsəlmanın 35-40 mini İŞİD-ə qoşulursa, bu heç 2.1% də etmir. Digər tərəfdən, ölkəmizdə DTX rəhbəri terrorçuların sayını 900 nəfərə yaxın deyirsə, demək, elə də böyük rəqəm yoxdur, bunun qarşısını almaq üçün aidiyyəti qurumlar işlərini layiqincə görəcəklər".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 251 (6865) 1 dekabr 2017



# Coğrafiyamızın ən aktual problemi - paralel arvadlar qanunu

Samir SARI

**Dünyagörmüş kişilərdən birinin bir sözü var, deyir: "Kişinin bir arvad alıb-boşaması yekə bir səhvdir, amma gedib yenidən arvad alması ondan da yekə səhvdir".**

Düzdür, dünyagörməmiş kişilərdən bir-ikisi səhvlər silsiləsinin başlanğıcını birinci arvad almaqdan başlayıb hesablayırlar, amma o qədər də olmaz. Uzunmüddətli subaylıq da bir kişilik deyil və bu cür subaylığın sultanlığa-filana dəxli yoxdur. Birincisi, bəlli olduğu kimi, sultanların hər birinin 30-40, bəzən də 100-dən artıq arvadı olub və tək birini belə qardaşlarına güzəştə getməyiblər (Kösəmin kinosunda gördük).

İkincisi, bir şey ki, əqidəli subay corabını özü yuyacaq, eyzən kolbasa-sosiska ilə qidalanacaq, orda-burda sümsünəcək, ta bunun harası sultanlıq oldu?

Xüləs, durub-dururkən, bu mövzunun aktuallaşması boşuna deyil, Qırğızıstanın dini lideri media önündə ikinci arvad aldığını etiraf edib, başqa kişiləri də özündən nümunə götürməyə çağırıb.

Adamın adı Çubak ajı Cəlilovdur. O, yaydığı bir videoda deyib ki, birinci arvadını boşamayıb və indi arvad bir qədər qəzəblidir ki, nədən sevgili yarı onun üstünə günü gətirib. Razılaşaq ki, ortada günü söhbəti varsa, avtomatik olaraq ərin arvada dediyi "yarım" ifadəsi gücünü itirir, ən uzağı "şaqqam" deyə bilər.

Bu, strateji-romantik, bir az da demoqrafik-sentimental məsələ olduğuna görə hazırda qırğız kişiləri həyəcanlı, qırğız xanımları isə əndişəlidir. Bəlkə də kişilər əlavə informasiya almaq üçün kütləvi şəkildə internet resurslarına giriblər, qadınlar isə nigarançılıqdan üzülür, hətta ağlaşırlar.

Xoşbəxtlikdən, ya da tərs kimi, Qırğızıstan konstitusiyasına görə, çoxarvadlılıq ölkədə qadağandır. Amma bu təbii ki, qafasına ikinci arvad almaq ideyasını qoymuş kişilərə maneə deyil, imkanları varsa, mütləq alacaqlar. Əslində, elə dünyanın çox ölkəsində olduğu kimi, onlar da ikinci, üçüncü arvadı alırlar, sadəcə, onun adı başqadır və qeyri-leqaldır.

Qırğız kişiləri isə istəyirlər ki, hər şey dürüst, qanuni, necə deyərlər, halal olsun - həm şəriət baxımından, həm də ölkənin qanunları baxımından.

Bu məsələ bizdə, eləcə də söhbətə "bismillah"la başlayan bütün ölkələrdə həmişə aktual olub, aktualdır və belə görünür ki, həmişə də aktual olacaq. Çünki bu coğrafiyada başqa dərd-sər, qayğı-filan yoxdur. Əsas məsələ bacardıqca çox və tez-tez arvad almaqdır.

Elə çıxmasın ki, firavan Qərb ölkələrindəki kişilər bir arvadın dizinin dibini kəsdirib dururlar. Xeyr. Onların da bir xeylisi arvadı tez-tez dəyişirlər - hətta köhnəlmiş "Mersedes"lərindən daha tez-tez. Arsız-arsız təyyarəyə oturub Taylanddan arvad almağa gedənlər də minlərlədir. Amma qərblilərin bir işi var ki, özlərini paralel arvad saxlamaq zülmünə salmırlar, birini boşayırlar, o birini alırlar, hətta boşadıqları arvadlarla dost qalmağı üstün tuturlar.

Bizim regionda isə kişilər boşadıqları arvadların da qeyrətini çəkdikləri üçün ya boşasalar da, nəzarətsiz buraxmırlar, ya da ümumiyyətlə nə rəsmən boşamırlar, nə də ərlik eləmirlər, deyirlər, buralarda ol, uşaqları böyüt.

Heç demə, Cəlilov öz çağırışını bir çox qırğız qadınının Rusiya, Türkiyə və Çinə yollanıb qədim peşəylə məşğul olmaları ilə əsaslandırıb. Yəni millətin qalpağını (qırğız papağı) düşünüb, deyib, gəlin öz xatunlarımıza sahib çıxaq. Nə qədər də vətənpərvər! Necə bir milliyyətçi! Halal olsun o ikinci arvad ona.

Xatırladım ki, eyni səbəb bizim ölkəmizdə də mövcuddur. Bizim çoxarvadlılığı dəstəkləyənlərimiz də bəzi qadınların Dubaya, Türkiyəyə getmələrinin qarşısını almaq, eləcə də manyak ərəblərin ayağının Bakıdan kəsilməsini təmin etmək üçün bu "islahat"ı vacib saya bilərlər.

Adam oturub fikirləşir ki, görəsən, İndoneziyadan Albaniyaya qədər uzanan müsəlman dünyasında heç olmasa bir ruhani çıxıb deyəcəkmi, nəhayət, qurtarın bu söhbəti, abrınız, həyanız olsun, manyaklığınızı qanunuləşdirməyə çalışmayın.

# Zərifin qalmaqallı İrəvan səfərində ilginc detal



# Tehrandan Bakıya pislik - Ermənistan "sülhün carçısı" adlandırıldı

İran XİN başçısı İrəvanda işğalçı ölkəni mədh edib göylərə qaldırdı; bəs İran ali dini liderinin Qarabağ bəyanatı necə olsun? **Azərbaycandan etiraz:** "Bu, çox böyük siyasi səriştəsizlik və həyasızlıq həddinə çatan bir davranışdır..."

**İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin iki günlük Ermənistan səfəri başa çatıb. Musavat.com-un erməni qaynaqlarına istinadən verdiyi məlumata görə, prezident Serj Sərkisyan tərəfindən qəbul edilən Zərif səfər çərçivəsində öz ölkəsi adından işğalçı ölkəyə bir sıra ilginc reveranslar etməsi ilə yadda qalıb, hətta bu xüsusda "barıtı" gözlədiyimizdən də artıq edib.**

Xatırladaq ki, İranın baş diplomatı səfərinin birinci günü İrəvanda erməni həmkarı Edvard Nalbəndyanla keçirdiyi mətbuat konfransında iki ölkə arasında əlaqələrin "çoxsaylı istiqamətlər üzrə fəal inkişafda olduğunu" bildirib. Onu sözlərinə görə, İran və Ermənistan yaxşı qonşulardır. İran XİN başçısı həmçinin son illər tərəflər arasında siyasi və iqtisadi sahələrində əlaqələrin daha da möhkəmləndiyini qeyd edib. O sırada Zərif energetika və nəqliyyat sferaları, ekologiya və elm sahələri üzrə əməkdaşlığa diqqət çəkib. Bundan əlavə, o, beynəlxalq meydançalarda Tehrana verdiyi dəstəyə görə erməni tərəfinə minnətdarlıq edib.

Səfərin ikinci günü isə iranlı diplomat daha absurd açıqlaması ilə yadda qalıb. Belə ki, İran XİN başçısı Ermənistanı bölgədə "sülhün və əmin-amanlığın carçısı və təminatçısı" adlandırmaqla faktiki şəkildə təcavüzkar ölkəni mədh edib. Paralel surətdə Azərbaycanın, onun xalqının, o sırada yurd yerləri etnik təmizləməyə məruz qalmış 1 milyon azərbaycanlı müsəlman köçkünün qüruruna toxunub, şəhidlərimizin ruhuna hörmətsizlik edib.

Sözsüz ki, bir müsəlman dövlətinin, həm də qonşu müsəlman dövlətinin xarici siyasətinə başçılıq edən şəxsin belə qərəzli mövqeyi müsəlman ümməti adına ikiqat utancvericidir, islam ölkəsinə yaraşmayan davranışdır. Bütün bunlardan sonra Zərifin Rusiyanın erməni kökənli XİN başçısı Sergey Lavrov təki İrəvanda erməni həmkarı Edvard Nalbəndyanla bircə qucaqlaşıb öpüşməsi çatmırdı.

İstənilən halda, İran XİN rəhbərinin dediklərini Tehranın rəsmi mövqeyi kimi qəbul eləmək lazım gəlir. Əfsus ki, Bakıya qarşı Zərifin kobud manevrləri İran-Azərbaycan əlaqələrinin hazırkı inkişaf dinamikası ilə ciddi təzad təşkil edir. Siyasi ekspertlər də eyni qənaəti bölüşürlər.

*****

**"Bu, çox böyük siyasi səriştəsizlik və siyasi həyasızlıq həddinə çatan bir davranışdır. Əlbəttə ki, bu cür sözlər İran-Azərbaycan münasibətlərinin inkişafına xidmət edə bilməz". Bu sözləri axar.az-a sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli Məhəmməd Cavad Zərifin Ermənistanı bölgədə sülhün carçısı və təminatçısı adlandırmasına münasibət bildirərkən deyib.**

**O, son faktı heyrətamiz adlandırıb:** "Necə ola bilər ki, İranın xarici işlər naziri Ermənistanın Azərbaycana qarşı təcavüzü, torpaqlarımızın 20 %-ini işğal etməsi, bu ərazilərdəki əhalinin öz yurd-yuvalarından didərgin salması ilə bağlı faktları bilmir və onların üzərindən keçərək, Ermənistanı bölgədəki sülhün əsas təminatçılarından biri hesab edir və hələ də bizim torpaqlarımızın erməni işğalı altında olmasından bəhs etmir".

**Politoloqa görə, təəccüb doğuran məqam isə İranın həmişə Qarabağla bağlı məsələlərin nizamlanmasında iştirak edə biləcəyini bəyan etməsinə baxmayaraq, Zərifin bu istiqamətdə bir kəlmə də olsun danışmamasıdır:** "Zərif çıxışında tərəflərin sülhyaratma prosesinə hansı məsələlərin mane ola biləcəyini, üstüörtülü şəkildə də olsa səsləndirmir. O, sanki qardaş bir ölkənin dünya siyasətində oynadığı rolu şərh edirmiş kimi Ermənistanı tərifləyə-tərifləyə, az qala göylərə qaldırır. Doğrusu, bu sözləri eşidən adamın qanı dona bilər. Maraqlısı isə budur ki, bölgədə ən çox silah ehtiyatlarına malik, Azərbaycana qarşı hər zaman təhdid və hədə mövqeyində dayanan İranın xarici işlər naziri Ermənistanın bölgədə sülhün carçısı olmasına dair bir fakt belə irəli sürməyib. Ermənistan əslində bölgəni çalxalayan, qarşıdurmalar yaradan və Rusiyanın itaətkar qulu kimi böyük dövlətin maraqlarını qoruyan bir köpək rolundadır. İran xarici işlər nazirinin bunu görməzdən gəlməsi həqiqətən də biabırçılıq və siyasi riyakarlıqdır".

**Politoloq bildirib ki, M. Zərif faktiki olaraq İran-Azərbaycan münasibətlərinə qarşı təxribat xarakterli hərəkət edib.** "Zərif tərəfsiz mövqe sərgiləməsinin lazım olduğu bir vaxtda İran-Ermənistan münasibətlərinin "tarixi qatları"ndan danışıb. Güman edirəm ki, Zərifin Ermənistanla olan münasibətlərindən danışması mümkün idi, ancaq müsəlman ölkəsinə qarşı təcavüzkar hərəkətlər törədən xristian ölkəsinin belə təriflənməsi nə müsəlman dininin, nə də beynəlxalq hüququn qaydalarına uyğundur. Yalançı və saxta fikirlərlə Ermənistanı mədh edən insanın bu cür yüksək kürsüyə yiyələnməsi məndə təəccüb doğurur", - deyə politoloq əlavə edib.

*****

Göründüyü kimi, gerçəkdə İranın baş diplomatı adi Qarabağ həqiqətlərini danmaqla öz ölkəsi adından Azərbaycana böyük bir pislik edib. Halbuki İranın ali dini lideri, hörmətli ayətullah Əli Xomeneyinin mövqeyidir ki, işğal edilmiş Dağlıq Qarabağ Azərbaycan torpağıdır və oradakı rejimlə hər hansı əməkdaşlıq haramdır.

Deməli, Qarabağdakı separatçı rejimin arxasında duran işğalçı Ermənistanla əməkdaşlıq da haramdır. Bəs, gördüklərimiz necə olsun? Görəsən, cənab Zərif heç olmasa, öz ali dini liderinin mövqeyinin fərqindədirmi? Onun da fərqindədirmi ki, belə mövqe öz adında "İslam Respublikası" ifadəsi daşıyan İranı Qarabağ məsələsində islam dünyasından qopararaq, "sülh carçısı" Ermənistan və Rusiya ilə eyni cərgədə qoyur?

**Maraqlıdır ki, Zərif bu günlərdə Bakıya da səfər edəcəyini söyləyib. Görəsən, o, Ermənistanda dediyini burda danmayacaq ki? Ümumiyyətlə, Bakıya gəlməyə üzü olacaqmı? Onu burada sərt suallar gözləyir...**

❑ **Siyasət şöbəsi**

# Azərbaycan oliqarxları var-dövlətini Kremlin düşməninə etibar edir

## Bu ilin iyununda NATO-ya üzv olan Monteneqronu cəlbedici edən nədir? Bu kiçik dövlətdə 35 min avroluq əmlak alana il ərzində ölkədə müvəqqəti yaşamaq hüququ verilir; bu səbəbdən əmlak ötən ilə nisbətən 8,68% faiz artıb

**Azərbaycan hökumətinin gördüyü sərt maliyyə tədbirlərinə baxmayaraq, ölkədən xaricə valyuta axını bu il ərzində də davam edib. Virtualaz.org xəbər verir ki, bunu Balkan ölkəsi Monteneqronun Mərkəzi Bankının 2017-ci ilin 10 ayı ərzində ölkədə xarici vətəndaşlar tərəfindən daşınmaz əmlaka qoyulan yatırımlara dair açıqladığı statistika da təsdiq edir.**

Statistikaya əsasən, bu ilin 10 ayı ərzində Rusiya vətəndaşları Monteneqroda mənzillər, evlər və digər daşınmaz əmlak almaq üçün 35.6 milyon dollar yatırıb. Azərbaycan vətəndaşları isə bu ölkədən 45 milyon dollarlıq daşınmaz əmlak alıb. Bu göstərici üzrə liderliyi Birləşmiş Ərəb Əmirlikləri vətəndaşları tutur-87 milyon avro.

"Yeni Müsavat" xatırladır ki, bu ilin iyununda Rusiyanın ciddi basqılarına baxmayaraq, Monteneqro NATO-ya qoşularaq, alyansa üzv olan 29-cu dövlət oldu. Bu, vaxtilə Yuqoslaviyanın bir hissəsi olmuş ölkənin müstəqillik əldə etməsindən 11 il sonra baş verdi. Rusiyanın Xarici İşlər Nazirliyi Monteneqronu "düşmənçilik istiqaməti" tutduğuna görə sərt qınadı və hazırda da münasibətlər gərgindir. Monteneqronun alyansa qoşulması ilə Rusiyanın Balkan ölkəsindəki iki dəniz limanına çıxışını faktiki itirməsi ilə nəticələndi ki, bu səbəbdən də zaman-zaman bu ölkədəki müxalifətin keçirdiyi aksiyalarda Rusiyanın barmağı olduğu iddia olunur.

Amma göründüyü kimi, Kremlin təhdidlərinə baxmayaraq, Azərbaycan varlıları artıq küreyini NATO-ya söykəmiş bu ölkəyə öz var-dövlətlərini etibar etməkdən çəkinməyiblər. Varlı azərbaycanlıların bu ölkəyə marağının iki mühüm səbəbi ola bilər. Əvvəla, bu ölkəyə SOCAR ciddi investisiya yatırıb. Hələ 2012-ci ildə SOCAR Monteneqronun Kubor adasını 90 illiyə icarəyə götürüb. Anlaşmaya görə, şirkət birinci dörd ildə adada kurort və turizmin inkişafına 52 milyon avro yatırmalı idi. İcarə razılaşmasının imzalanmasından sonrakı 8 ildə isə SOCAR tərəfindən adaya 258 milyon avro yatırılacağı planlaşdırılırdı. Bildirilirdi ki, SOCAR 45 illik icarə haqqını bəribaşdan ödəyəcək, bu zaman adadakı daşınmaz əmlakın hər kvadratmetri cəmi 1 dollardan hesablanıb. Hazırda bu müqavilənin icrasının hansı mərhələdə olduğunu demək çətindir, çünki bu məlumatlar yalnız dövlətlər asında müzakirə edilir.




"Yeni Müsavat"ın məlumatına görə, Azərbaycan Monteneqroda daha bir iri layihə də həyata keçirir. Belə ki, "Azmont Investments" şirkəti "One&Only Portonovi Montenegro" istirahət kompleksinin tikintisinə başlayıb. Lüks istirahət kompleksi 26 hektar ərazisi olan və Monteneqronun Boka Kotorska körfəzinin sahillərində gözəl mənzərəli bir ərazidə yerləşən Portonovi şəhərciyinin əhəmiyyətli bir hissəsi olacaq. "One&Only Portonovi Montenegro" istirahət kompleksi 2018-ci ildə qapılarını qonaqlar üçün açacaq. Portonovi layihəsi Azərbaycanın xarici ölkələrdə qeyri-enerji sektorunda həyata keçirdiyi ən iri yatırım layihəsi hesab olunur.

Azərbaycanlıları Monteneqroya cəlb edən ikinci mühüm səbəb burada 2015-ci ilin noyabrında qəbul edilmiş qanundur. Bu ölkədə qəbul edilən qanuna görə, 35 min avroluq əmlak alana il ərzində ölkədə müvəqqəti yaşamaq hüququ verilir. Məlumatlara görə, hazırda bu qiymətə Monteneqroda əmlak almaq çətinləşib, çünki sahilə yaxın ərazilərdə əmlakın 1 kvadratmetri ən azı 1000 avrodur. "Global Property Guide" konsaltinq şirkəti 2017-ci ilin ilk rübündə dünyada ən çox əmlak qiymətləri artan 18 ölkənin siyahısını açıqlayıb ki, o siyahıda Monteneqro da yer almışdı. Şirkətin məlumatında bildirilirdi ki, Monteneqroda əmlak ötən ilə nisbətən 8,68% faiz artıb.

Turizm şirkətindəki bir mənbəmiz deyib ki, həqiqətən də ölkənin turizm bölgələrində əmlakların qiyməti çox artıb ki, bu da tələbatla bağlıdır. Amma məsələn, ölkənin Podqoritsa adlanan bölgəsində evlər dəniz sahillərindəkindən 20-30 faiz ucuzdur.

❑ **"YM"**

# General poqonu sökülən Elçin Quliyevin cəzası: 10 il 6 ay həbs, əmlakı müsadirə...

## Məhkəmə cinayət işində zərərçəkmiş kimi tanınan şəxslərin mülki iddiasını təmin etmədi

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin Antiterror Mərkəzinin rəisi, general-mayor Elçin Quliyev və Antiterror Mərkəzinin əməkdaşı, polkovnik Azər Mehdiyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**



Musavat.com-un məlumatına görə, Bakı Hərbi Məhkəməsində hakim Elbəyi Allahverdiyevin sədrliyi ilə keçirilən prosesə Elçin Quliyev xüsusi nəzarət altında gətirilib və məhkəmə zalı yoxlanılıb. Prosesdə hökm oxunub.

Hökmə əsasən, Elçin Quliyev 10 il 6 ay, Azər Mehdiyev isə 8 il müddətinə azadlıqdan məhrum edilib. Qeyd edək ki, dövlət ittihamçısı Elçin Quliyevin cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 15 il, Azər Mehdiyevin 13 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Məhkəmə zərərçəkmişlərin mülki iddiasını təmin etməyib. Prosesdə təqsirləndirilən şəxslərin hərbi rütbəsinin geri alınması ilə bağlı ölkə başçısına müraciət olunmasına dair qərar qəbul olunub. Məhkəmə cinayət işində zərərçəkmiş kimi tanınan şəxslərin mülki iddiasını təmin etməyib. Yalnız Dövlət Təhlükəsizlik Xidmətinin mülki iddiası təmin edilib.

Hökmə əsasən, DTX-nin təqsirləndirilən E.Quliyevə qarşı qaldırdığı 7 milyon 736 min 58 manatlıq mülki iddiası təmin olunub. General və polkovnikin əmlakları dövlətin xeyrinə müsadirə edilib.

**Bildirək ki, generalın aşağıdakı əmlaklarına həbs qoyulub:**

90 TT 757 nömrəli "Mercedes BENZ GL 500"- 105 min manat

90 HH 757 nömrəli "Mercedes BENZ C200"- 64 min manat

Mərdəkan qəsəbəsində bağ sahəsi- 172 min manat

Ceyranbatan qəsəbəsində torpaq sahəsi- 27 min 500 manat

Nabranda torpaq sahəsi 12 min manat.

Xatırladaq ki, Elçin Quliyev MTN-in Antiterror Mərkəzinin rəisi olub. Daha sonra MTN-lə bağlı aparılan istintaq zamanı o tutduğu vəzifədən azad edilərək nazirliyin Heydər Əliyev Akademiyasının kafedra rəisi təyin edilib. Ondan sonra isə şübhəli şəxs qismində saxlanılaraq həbs edilib.

Elçin Quliyevə Cinayət Məcəlləsinin 145.3-cü (qanunsuz azadlıqdan məhrum etməklə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olma), 181.3.1-ci (mütəşəkkil dəstə tərəfindən quldurluq törətmək), 181.3.2-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə quldurluq törətmək), 182.3.1-ci (mütəşəkkil dəstə tərəfindən hədə-qorxu yolu ilə tələb etmə), 182.3.2-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu yolu ilə tələb etmə), 302.2-ci (əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma, eyni əməllər informasiyanın gizli yolla götürülməsi üçün nəzərdə tutulan xüsusi texniki vasitələrdən istifadə edilməklə törədildikdə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmək), 309.2-ci (vəzifə səlahiyyətlərini aşmaqla, zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə, yaxud silah və digər xüsusi vasitələrdən istifadə etməklə törədildikdə və ya ağır nəticələrə səbəb olma), 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən rüşvət alma), 311.3.2-ci (təkrar rüşvət alma), 311.3.3-cü (külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan olunub.

❑ **İ.MURADOV**



# İntihar edən polkovnikin əmlakları müsadirə olundu

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi Antiterror Mərkəzinin rəis müavini olmuş polkovnik İlqar Əliyevlə bağlı noyabrın 30-da məhkəmə qərarı açıqlanıb. Musavat.com xəbər verir ki, həbsxanada intihar edən polkovnikin üzərində həbs olan mülklərinin müsadirə olunması ilə bağlı məhkəmə qərarı qüvvədə saxlanılıb.**

Qeyd edək ki, İlqar Əliyev Milli Təhlükəsizlik Nazirliyi Antiterror Mərkəzinin rəisi, general-mayor Elçin Quliyevin müavini olub. İlqar Əliyev 2015-ci ilin oktyabrında həbs edilib, həmin il dekabrın 20-də saxlandığı istintaq təcridxanasında intihar edib. Bundan sonra İlqar Əliyevin barəsində olan cinayət işi ayrıca icraata götürülüb, onun işi üzrə istintaq hərəkətləri prokurorluqda davam etdirilir.

İlqar Əliyevin intihar etməsi ilə bağlı başlanan cinayət işinə xitam verilib. İlqar Əliyevin üzərinə həbs qoyulan əmlakları aşağıdakılardır:

- Badamdar qəsəbəsində 12 sot torpaq sahəsi və 2 mərtəbəli villa - 798 min manat;
- Badamdar qəsəbəsində 6 sot torpaq sahəsi - 180 min manat;
- N.Nərimanov prospektində obyekt - 418 min manat;
- Nabranda 6 sot torpaq - 12 min manat;
- Şamaxı rayonu Avaxıl kəndində torpaq sahələri - 12 min 400 manat;
- Mərdəkan qəsəbəsində bağ evi - 192 min manat;
- Ceyranbatan qəsəbəsində 8 sot torpaq sahəsi - 21 min manat;
- Göyçay şəhərində daşınmaz əmlak - 114 min manat;

Göyçay rayonu Çərəkə kəndində 2 hektar torpaq sahəsi 7200 manat...

❑ **İ.MURADOV**

YENİ MÜSAVAT
N 251 (6865) 1 dekabr 2017



# Bəxti gətirən Yuqoslaviya

Zamin HACI
zaminhaci@mail.ru

## "Oba yiyəsiz qalanda donuz təpəyə çıxar"

*(Azərbaycan ata sözü)*

**Son günlər Beynəlxalq İnsan Haqları Məhkəməsinin keçmiş Yuqoslaviyada hərbi cinayətlər üzrə hökmləri diqqət mərkəzində oldu. Serb generalı Ratko Mladiç ömürlük həbs cəzası aldı, başqa bir xorvat general isə 20 illik həbs hökmünə dözməyib zəhər içdi. Bunlar insanda ədalətin haçansa qələbə çalacağına az da olsa ümid yaradır. Ermənistan silahlı qüvvələrinin Qarabağda törətdiyi vəhşiliklərin də cəzasız qalmayacağını fikirləşirsən. Hərçənd ermənilərin elə özləri özlərinə elədiyini başqası eləyə bilməz. Günahsız insanların qanı hesabına, Rusiyanın maşası olmaq sayəsində qazanılan qələbə onsuz da ermənilərin burnundan gəlir, neçə illərdir bir-birini qırırlar. Elə bu günlərdə bir Qarabağ döyüşləri veteranına 6 il həbs cəzası kəsdilər. Təbii, azərbaycanlıları öldürdüyü üçün yox, başqa suçu da varmış.**

Qayıdaq Yuqoslaviya hadisələrinin yekununa. Yaxşı məlumdur ki, orda serblərin və xorvatların müsəlman bosniyalılara qarşı, eyni zamanda öz aralarında amansız, vəhşi qırğınlarına NATO son qoymuşdu. Bütün 90-lar boyunca davam edən etnik Balkan münaqişələrini NATO bombardmanları qısa müddətdə, 1999-cu ilin cəmi 3 ayı ərzində bitirdi. Yoxsa kim bilir orda dava nə qədər çəkəcəkdi. İndi Haaqa məhkəməsi qarşısında dayanan cəllad generallar isə bəlkə hərəsi bir dövlətciyin yiyəsiydi.

O dövrü indiki vaxtla müqayisə eləməyin mənası çoxdur. Təsəvvür edin ki, Rusiyada o vaxtlar Yeltsin yox, Putin hakimiyyətdə olaydı. Neft pullarından damara vurmuş rus generaliteti də şişmiş vəziyyətdə olaydı. Yuqoslaviya böhranına o zamanlar ruslar iqtisadi çətinliklər üzündən çox girişə bilmədilər. Bölgənin bir növ xoşbəxtliyi də buna bağlıdır. Çünki rusların qarışdığı böhranlar permanent (davamlı, qalıcı) özəlliyə malikdir. Rus imperiyası yüz illərdir öz hökmranlığını "parçala, hökm sür" siyasəti əsasında aparır. Bütün başqa imperiyalar kimi. Rusların ayağı dəyən yerdə illərlə ot bitmir. Daha doğrusu qırmızı otlar bitir - qanla suvarılmış...

Hazırda bunun tipik örnəyi Suriyadır. Ruslar farslarla birləşib Suriya diktatoru Bəşər Əsədin hakimiyyətini qorudular. Ancaq nəyin bahasına? Bütün Suriyanı xarabazara döndərdilər. Vətəndaş savaşı milyonlarla suriyalını dünya üzünə dərbədər saldı, Suriyanın gələcəyi necə olacaq kimsə bilmir, ancaq bunlar Putin və İran rejimlərinin çox vecinədirmi? Əsas məqsəd suriyalılar deyildi ki. Əsas məqsəd Əsədi qorumaq idi. Bölgədə öz oyuncaq rejimini saxlamaq idi. Bunlara da nail olunmuş kimi görünürlər. Təbrik eləmək olar. Rusiya, İran və Türkiyənin Suriyanın gələcəyi haqda danışıqlarını ironik təbəssümlə izləyirik. Yuqoslaviya camaatına isə bir daha "Bəxtiniz əməllicə gətiribmiş, gedin qurban kəsin" deyirik.

Bizim bəxtimiz isə 90-larda gətirmədi. O qarışıq dövrdə içəridə aparılan hakimiyyət davasının qurbanı olduq və fürsət əldən getdi. Ümumiyyətlə, bizim yaxın tariximiz biabırçı faktlarla doludur, adam qaldırıb baxmağa da utanır. Misal üçün, 70 il biz paytaxtımızda və regionumuzda erməni cəlladı Stepan Şaumyanın adına 2 rayon qoymuşuq. Şaumyanın adı hər yerdə qabağına çıxırdı. Doğrudanmı 7 milyonluq bir millətin içində kimsə tapılmayıb ki, desin: "Siz neyləyirsiniz, adə? Axı bu Şaumyan köpəyoğlu 1918-ci ilin 31 martında azərbaycanlıların soyqırımına birbaşa rəhbərlik eləmişdi! Heç olmazsa insaf edin, başqa erməniyə heykəl qoyun, adını yaşadın. Bu ki açıq-aşkar bizi ələ salmaqdır". Ələ salıblar. Bəli. Bunun başqa adı yoxdur.

İndi də o şaumyansevərlər, ruspərəstlər, Daşnaksütyun Partiyasının fəalları müxtəlif kürsülərimizdə oturub bizə baxıb gülürlər. "Fəryad" kinosunda Məlik Dadaşovun yaratdığı erməni komandir obrazının əsirə verdiyi göz dağı kimi: "Bu gün Xocalını aldıq... Artıq Kəlbəcər də bizimdir... Şuşa da bizimdir... Ağdam da bizimdir..."

Məncə, onlar bizi ələ salmaqda haqlıdırlar. Bax epiqraf verdiyim el misalına.

# "Bir videom var, onu tapıb ortaya qoyurlar" - tanınmış jurnalistdən hadisə kimi açıqlamalar

## Azər Həsrət: "Son illər ermənilər məni görəndə özlərini yığışdırırlar"



**Azərbaycan mediasının tanınmış siması, hazırda isə beynəlxalq arenada ölkəmizin haqq səsini dünyaya çatdıran Azər Həsrət son günlərin ən populyar simalarından biridir. O, artıq beynəlxalq tədbirlərdə ermənilərlə baş-başa gəlir və onları arqumentləri ilə susdurur. Bununla belə, mübahisəli personalardan biridir. Deputatlıq arzusu, keçmişdəki yazıları, Mətbuat Şurası sədri iddiaları... Bütün bunlarla bağlı danışmaq üçün onu redaksiyamıza dəvət etdik və bizi maraqlandıran bütün suallara cavab tapmağa çalışdıq. Həmkarım Elşad Paşasoyla birlikdə xeyli sual hazırladıq və həmkar səmimiyyəti ilə onu cavablandırmasını istədik.**

*Qonağımızı öncə "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu salamladı.*

***- Azər Həsrətin səsi, fotoları son zamanlar müxtəlif qitələrdən, ölkələrdən gəlir. Xaçmazın Dədəli kəndindən başlayıb, Avropaya, Afrikaya, İndoneziyaya qədər gedirsiz. Belə sürətli və çoxsaylı səfərlərin əsas səbəbi nədir və siz oralarda nə edirsiz?***

- Dədəli mənim yurdumdur, ata evimdir. Yurda bağlı insanam. İki daş arasında belə, səhər tezdən gedib, axşam qayıtdığım olur.

**R.Arifoğlu:**

***- Hətta sosial şəbəkədə bir statusunuza rast gəldim ki, həftə sonu məni Bakıda tədbirlərə çağırmayın, axtarmayın, Dədəlidə oluram...***

- Özüm üçün adət etmişəm. Hər ay əzizlərimin qəbrini ziyarət edirəm kəndimizdə. Bəlkə də kəndimizdə yeganə adamam ki, 12 ayın 12-sində də məzarlığa gedirəm. İkincisi də, hər bazar günümü mən o kənddə keçirirəm. Camaata qaynayıb-qarışıram. Xeyirdə-şərdə...

**R.Arifoğlu:**

***- Bunları bildik. Sizin ata ocağınızdır və bunu həyat tərzinə çevirmisiz. Bəs İndoneziyaya niyə getmişdiniz?***

- İndoneziyaya YUNESKO-nun tədbirinə getmişdim. Tək bir azərbaycanlı mən idim. Hətta rəsmi nümayəndələrdən də gözümə heç kim dəymirdi. Bu tədbirlərdə Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsinin sədri olaraq iştirak edirəm. İndoneziyada da 3 may Ümumdünya Söz Azadlığı Günü tədbirində iştirak edirdim. Mənim bu təşkilatla uzunmüddətli işbirliyim var.

**R.Arifoğlu:**

***- O tədbirlərin xərclərini özünüz çəkmirsiz?***

- Xeyr. Adətən ya dəvət edən tərəf çəkir. Elə situasiya olur ki, bu, Azərbaycana lazımdırsa, vətəndaş cəmiyyəti nümayəndəsi olaraq QHT Şurası bu səfəri maliyyələşdirir. Yəni mənim cibimdən getdiyim səfərlər də olur. Bu ilin yayında Tatarıstana xanımımla getmişdim. Xanımım əməkdar biologiya müəllimidir. Onu "master klass" verməyə dəvət etmişdilər. Kazan Dövlət Universiteti dəvət etmişdi. Arzu edirdilər ki, mən də orda olum.

**R.Arifoğlu:**

***- Bəs xanımınız necə, sizin hesabınıza belə səfərlərə gedirmi?***

- Xanımım əsasən mənim hesabıma gedir (gülür). Amma siz nəzərdə tutduğunuz mənada mənim hesabıma getdiyi səfərlər olmayıb. Çünki o, ixtisasca pedaqoqdur, öz sahəsi ilə bağlı tədbirlərə gedir. Amma bəzi səfərlərdə mən onu müşayiət etmişəm. Onunla yol yoldaşlığı etməyi istərəm. Çünki biz bir-birimizi çox yaxşı anlayırıq. Eyni zamanda o da öz sahəsinin qabaqcıl mütəxəssislərindən biridir.

**R.Arifoğlu:**

***- Özü demədi, amma mən qeyd edim ki, Azər Həsrətin son illər çoxsaylı beynəlxalq tədbirlərdə, özü də sıx intervalda iştirak etməsinin səbəbi budur ki, ingilis, rus və türk dillərində çox sərrast danışır. Bu da Azərbaycanın müəyyən çevrəsi üçün çox əhəmiyyətli bir məqamdır. Azər Həsrət həm də zəngin bioqrafiyası ilə seçilən şəxslərdən biridir, demokratik fikir və media, QHT təmsilçisidir... Bu ümumiləşdirmənin ardınca bir sual: səfərlərin yekunu olaraq ekspert və bir qədər təftişçi bir şəxs kimi sizdə yaranan fikirlər necədir? Azərbaycan beynəlxalq arenada, sektorda necə təmsil olunur? Əvvəllər adətən bu cür beynəlxalq tədbirlərdə ermənilər, ruslar meydan sulayırdı. Bizimkilər isə yalnız həmin ölkələrdəki səfirliklərin o qədər də yüksək siyasi intellekti olmayan təmsilçilərinin vasitəsilə zəif müdafiə olunurdu. İndi durum necədir?***

- İntellekti bir qırağa qoyaq, səfirliklərin nümayəndələrinin ürəyi yox idi. Millətə bağlılıq məsələsində problem var idi. Məsələyə çox sadəlövh yanaşırdılar. Mən 20 ilə yaxındır ki, Azərbaycanın media və QHT sektorunu beynəlxalq səviyyədə təmsil edirəm. ATƏT, Avropa Şurası, NATO, Avropa Birliyi... səviyyəsində tədbirlərdən söhbət gedir. Dünyanın ən öndə gələn və sayılıb-seçilən təşkilatları, əlavə olaraq da jurnalist təşkilatlarının baş qərargahlarında olmuşam. Nə müşahidə edirəm? Əvvəlki illərdə meydanda tək görünürdüm. Sağa-sola baxanda görürdüm ki, Azərbaycan davası ediriksə, ya səsimə səs verən yoxdur, ya da çox naşı adamlardır. O naşı adamlar da diplomatik korpus nümayəndələri idilər. Naşılıqları da ondan ibarət idi ki, əllərində hazır çıxışla gəlir, o çıxışı edir və işlərini bununla bitmiş hesab edərək gedirdilər. Bununla Azərbaycan davası aparılmaz. Biz nə edirik? Son illər bu sahədə vəziyyət çox dəyişib. O tədbirlərdə Azərbaycan hökumət nümayəndələrini daim öz yanımda görürəm. O adamların da artıq hazır kağızdan çıxış etmədiyinin şahidi oluram.

**S.Telmanqızı:**

***- Sizin Brüsseldəki çıxışınız əvvəlcədən hazırlanmış deyildi?***

- Xeyr. Mən bu yaşa gəlib, heç bir dildə yazılı çıxış etməmişəm. İngilis, rus, türk dillərində... Özümü də buna alışdırmaq istəməmişəm. Məsələn, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Varşavada illik toplantısı olur. Mən davamlı orda iştirak edirəm. Orda artıq hazır çıxışla getmək mümkün deyil. Getdinsə, uduzdun. 50 nəfər adam çıxış edir iclasda. Mən çalışıram ki, 40-cı adamdan sonra siyahıya yazılım.

**S.Telmanqızı:**

***- Azərbaycana qarşı danışanlara toplu cavab vermək üçün?***

- Mütləq. Mən o tədbirə gedənə, sessiyaya çatana qədər nə danışacağımı bilmirəm. Sadəcə olaraq, orda diqqətlə dinləyirəm. Azərbaycana ənənəvi hücum edənlər var. Bütün bunları dinləyirəm, ehtiyac olsa, iki-üç sətir qeyd edirəm. Brüsseldə düşünürdüm ki, mənim çıxışıma ehtiyac olmaya bilər. Amma situasiya elə oldu ki, zala müraciət edildi çıxış üçün və mən öz sözümü dedim.

**R.Arifoğlu:**

***- Ermənilərlə polemikanız olub?***

- Olub. Brüsseldə də çıxışım Qarakənd faciəsi, vertolyotun vurulması ilə bağlı idi. O da təsadüfən həmin günün həmin saatına təsadüf etmişdi. 14.41-də vertolyot vurulub, mən də 14.39-da çıxış etdim. Ermənilərlə polemikaya gəlincə, ermənilərin tanınan üzləri var. Onlar son illər məni görəndə özlərini yığışdırırlar. Çünki mənim çərçivəm yoxdur.

**R.Arifoğlu:**

***- Özümüzünkülərlə polemikada da çox sərtsən. Bu tərzin səbəbi nədir?***

- Səbəbi odur ki, mən inandığımın üzərinə sərt gedən biriyəm. Bilirəm ki, haqq yolunda ucadan, yüksək səslə danışıramsa, bu o deməkdir ki, mən ona ürəkdən inanıram. Şübhəm olsa, həmin mövzu haqda daha asta səslə danışaram.

**R.Arifoğlu:**

***- Hərdən öz həmkarlarımıza qarşı da həddən artıq sərt danışdığınız olur...***

- Olur. Həddən artıq... O da nədən qaynaqlanır? Reketlik məsələsində...

**R.Arifoğlu:**

***- Amma onlar da sizin üzərinizə gəlirlər.***

- Hə, gəlirlər. Bir videom var, onu tapıb ortaya qoyurlar. Mən də hər zaman deyirəm ki, Allahın bədbəxti, bu videonu mən tapıb yaymışam youtube-də. Sən məni nə ilə şantaj edirsən?

**R.Arifoğlu:**

***- (Təəccüblə) O nəyin videosudur elə?***

- Məşhur çıxış. Elmar Hüseynovun qətlindən sonra keçirilən toplantıda etdiyim kəskin siyasi çıxışdan gedir söhbət.

**E.Paşasoy:**

***- O zaman ona inanırdız, o cür danışırdız. İndi də situasiyaya uyğun, başqa cür danışırsız?***

- Yox, inanmaq məsələsi deyil. Allah göstərməsin, hesab edin ki, axşam bir həmkarınızı öldürüblər. Doğrudur, mənim Elmarla elə də isti münasibətim yox idi. İdeoloji olaraq bir-birimizə yad olmuşuq... Gecə onu öldürüblər və biz də səhər Beynəlxalq Mətbuat Mərkəzində bir araya gəlib, tədbir keçiririk. Bu emosiya mütləq aşıb-daşmalı idi.

**R.Arifoğlu:**

***- O videonu niyə youtube-dən yığışdırmırsız ki?***

- Niyə yığışdırım ki?

**S.Telmanqızı:**

***- Baxanda hansısa peşmançılıq, kompleks keçirmirsiz?***

- Qətiyyən. Hətta o videonu AzTV-də "əməkdar jurnalist" adı alanda etdiyim çıxışı da ona calaq ediblər.

**R.Arifoğlu:**

***- (Gülə-gülə) Mənimçün də elə video hazırlamışdılar.***

**E.Paşasoy:**

***- Sizi zaman-zaman incitmək istəyənlər "Azər deputatlığa Həsrət" deyə çəkirlər adınızı... Bu, sizə toxunmur?***

- Onu Elnur Astanbəyli yazmışdı. Mənimçün problem deyil.

**E.Paşasoy:**

***- Gerçəkdən deputatlığa həsrət... kimi bir durum var?***

**S.Telmanqızı:**

***- Onsuz da bu, sirr deyil ki. Siz hər zaman etiraf edirsiz ki, ən böyük arzunuz deputat olmaqdır.***

- Təbii. Bunu manşetdən də yazın. Mən özümü orda görürəm. Tanıyanlar mənim o qabiliyyətimi, bacarığımı, sağımı-solumu yaxşı bilirlər. Mən həyatda kredo olaraq özümü deputat görürəm. Nazir yox, icra başçısı yox, məhz deputat kürsüsündə. Bir zamanlar özümü Mətbuat Şurası sədri kürsüsündə görürdüm, indi görmürəm.

**S.Telmanqızı:**

***- Niyə? Bu kürsü niyə sizin üçün maraqsızlaşdı?***

**R.Arifoğlu:**

***- Amma iddialar var ki, özünüzü bu kürsüdə görürsünüz, Amaşovun yerinə göz dikmisiz...***

- Yoox. Amaşov bilirsiz necə adamdır? Bizim keçmişdə onunla qarşıdurmamız olub. Mən sərt demişəm, o, hər zaman yumşaq deyib...

**R.Arifoğlu:**

***- (Zarafatla replika verir) Ona görə də o, Mətbuat Şurasının sədridir.***

- Amaşovla bizim aramızda çözülməyəcək problem yoxdur.

**R.Arifoğlu:**

***- Amaşov bu vəzifədən getsə, sizin də namizədliyinizi Mətbuat Şurasına versələr, o vəzifəyə gedərsinizmi?***

- Düşünmürəm. Çünki çox balaca yerdir ora. *(Bizim təəccübümüzü görüb izahat verir - S.T.)* Bu, mənim təkəbbürümdən irəli gəlmir ha. Mən QHT sədriyəm. Uzun illər öncə Azərbaycan Jurnalistlərinin Həmkarlar İttifaqını qurmuşam. İndi pis-yaxşı, bu günə kimi ayaqdadır. İndi könüllü idarəetməni Müşfiq Ələsgərliyə vermişəm. Azərbaycan Jurnalistlər Konfederasiyasının qurucularından biri olmuşam. Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi «Soros» Fondunun pulu ilə qurulub. Dünyanı da o təşkilatın adı ilə dolaşıram.

**E.Paşasoy:**

***- Soros gedib, sizsə burdasız.***

- Bəli, mən burdayam. İddialarım vardı və onlara uyğun da hərəkət edirəm. Azəbaycan Mətbuat Şurasının qurucularından biriyəm. İctimai Televiziya və Radio Yayımı quruculuğunda bu və ya digər şəkildə iştirakçıyam.

**S.Telmanqızı:**

***- Eyni zamanda Yayım Şurasının üzvüsüz.***

- Bəli, indi üzvü olmuşam.

**S.Telmanqızı:**

***- Yayım Şurasının üzvü Mətbuat Şurasının sədri ola bilərmi?***

-Yox, elə bir qadağa yoxdur. Mətbuat Şurası QHT-dir. Mən, məsələn, Yayım Şurasının üzvü olaraq deputat ola bilmərəm, bizneslə məşğul olmaq hüququm yoxdur. Yəni mən proseslərin önündə olmuşam hər zaman.

**S.Telmanqızı:**

***- Bayaqdan özünüzlə bağlı sadaladığınız statuslara, gördüyünüz işlərə diqqətlə qulaq asıram. Ölkəni beynəlxalq aləmdə təmsil edirsiniz, ölkə daxilində hakimiyyəti müdafiə edirsiz, "mən hər zaman İlham Əliyevin arxasındayam" sözünü də sizin dilinizdən eşitmişəm. Əminəm ki, bu sual sıravi oxucunun da ağlına gəlir: hökumətə bu qədər xidmət göstərmiş Azər Həsrətə deputatlığı niyə qıymırlar?***

- Bu günlərdə deputatlardan birini bir verilişə dəvət etmişdilər. Təmsil etdiyi rayonun sosial-iqtisadi inkişafından danışmalı idi. Onunla bərabər də bir icra hakimiyyəti nümayəndəsi də efirdəydi. Jurnalist onların hər ikisinə sual verirdi. Siz təsəvvür edin ki, deputat orda tər tökürdü. Televiziyada çıxış edirdi, amma qabağındakı kağızdan oxuyurdu. Mən o zaman dəhşətə gəldim. Öz-özümə dedim ki, bu adamın yerinə mənim kimisi və ya Rauf Arifoğlu kimisi niyə olmasın?

**S.Telmanqızı:**

***- "Niyə"lərin cavabını özünüz üçün tapmısız?***

- Mənim üçün bu cavablar aydındır. Çünki mənim keçmişim müxalifətçidir. Düzdür, partiya mənsubiyyətim olmayıb...

**R.Arifoğlu:**

***- Amma Əli Kərimlini dəstəkləmisiz...***

- Əli Kərimlini ölümünə dəstəkləyən biri olmuşam. 2003-cü ildə bəyanat verib, İsa Qəmbəri dəstəkləmişəm. 16 oktyabrda meydanda ölümünə döyülənlərdən biri də mən olmuşam. Bunun da videosunu çəkib, evdə saxlayıram. Belim, bədənim zolaq-zolaq idi.

**R.Arifoğlu:**

***- Səni kim döyüb, yadındadırmı?***

- Paa... 10-a qədər polis nəfəri. Professor Adil Qeybullanın gözünün qabağında olub, ondan soruşa bilərsiz. Azadlıq meydanının arxa tərəfi ilə gedirdim. Mitinq bitmişdi. Özü də qaçmırdım, asta-asta gedirdim. 10 polis dəyənəkləri ilə birdən qabağıma çıxdı...

**S.Telmanqızı:**

***- Və başladılar sizi döyməyə?***

*(davamı növbəti sayımızda)*

❑ Söhbəti qələmə aldı
Sevinc TELMANQIZI





**"Mən həyatda kredo olaraq özümü deputat görürəm. Nazir yox, icra başçısı yox, məhz deputat kürsüsündə. Bir zamanlar özümü Mətbuat Şurası sədri kürsüsündə görürdüm, indi görmürəm"**



**"O deputatı görəndə öz-özümə dedim ki, bu adamın yerinə niyə mənim kimisi olmasın?"**



YENİ MÜSAVAT
N 251 (6865) 1 dekabr 2017

# Metroda gediş haqları artırılacaq-ilginc gəlişmə

## Hesablama Palatası 2018-ci ildə "Bakı Metropoliteni"nə ayrılmış 45 milyon manat subsidiyaya qarşı çıxdı; ekspert: "Gediş haqqının artırılması üçün zəmin hazırlanır"

**Bu il Nazirlər Kabineti Bakı Metropoliteninin subsidiyalaşdırılmasını dövlət büdcəsində nəzərdə tutulduğu kimi, 50 faiz artırıb. Növbəti 2018-ci ildə subsidiyanın həcmi 45 milyon manat səviyyəsində qalacaq. Hesablama Palatası (HP) dövlət büdcəsi layihəsinə rəyində buna qarşı çıxıb. Palata nəzarət tədbirlərinin nəticələrinə istinadən hesab edir ki, sərnişindaşıma xidmətlərinin maya dəyərini, cəmiyyətin strukturunda olan qeyri-kommersiya təyinatlı obyektlərin fəaliyyəti ilə bağlı müxtəlif xərcləri azaltmaq olar. HP hesab edir ki, maliyyə-uçot intizamının gücləndirilməsi istiqamətində zəruri tədbirlərin görülməsi ilə Bakı Metropoliteninə ayrılan subsidiyaları optimallaşdırmaq olar.**



2017-ci ildə «Bakı Metropoliteni» QSC-yə sərnişindaşımadan yaranacaq zərərin ödənilməsindən ötrü 30 milyon manat vəsait (subsidiya) proqnozlaşdırılmışdı. Bu, 2015-2016-cı illərin göstəricilərindən 7 milyon 998.2 min manat və ya 21 faiz az idi. Ancaq bu ilin mart və aprelində hökumət kommunal tariflərin artması ilə bağlı xərcləri maliyyələşdirməkdən ötrü Bakı Metropoliteninə əlavə 15 milyon manat subsidiya ayırıb. Bəzi ekspertlər də hesab edirlər ki, müxtəlif dövlət qurumlarına ayrılan subsidiyalar sonradan korrupsiya əməllərinə yol açır.

Bəs görəsən, əgər hökumət büdcədəki bu yükü azaltmaq istəsə və metropolitenə ayrılan subsidiyaları azaltsa, bu qurum yaranan zərərin qarşılanması üçün metroda gedişhaqlarının artırılması məsələsini qaldıra bilərmi?

**"Yeni Müsavat" bu sualı iqtisadçı ekspert Natiq Cəfərli ilə müzakirə edib. İqtisadçı bildirdi ki, metroda gedişhaqqının artırılması ilə bağlı uzun illərdir söhbətlər gəzir və metropolitenin istər köhnə, istərsə də yeni rəhbərliyi dəfələrlə sərnişindaşımada subsidiyalar hesabına indiki qiymətləri bu səviyyədə saxladıqlarını bəyan ediblər:** "Burada maraqlı cəhət ondan ibarətdir ki, hesablamanın strukturunu açıqlamayıblar. Bu rəqəmi necə hesablayıblar? Sərnişindaşımada maya dəyərinin nə qədər olmasını hansı parametrlərə görə hesabladıqlarını açıqlamayıblar. Bəyanatın məğzi, sadəcə, ondan ibarət olub ki, maya dəyəri yüksəkdir, xərclər çoxdur. Ancaq xərclərin nədən ibarət olduğunu və bir sərnişin üçün genişhaqqının neçəyə başa gəldiyinin hesablanması ilə bağlı parametrlər cəmiyyətə açıqlanmayıb. Hesablama Palatasının bu rəyi də gələcəkdə metroda gedişhaqqının artırılması üçün zəmin hazırlanmasının növbəti addımıdır. Çox böyük ehtimalla metroda da gedişhaqqının yaxın zamanlarda artırılması ilə bağlı qərar qəbul olunacaq".

**İqtisadçı vurğuladı ki, gediş haqqının indiki qiymətdən ən azı 10 qəpik artacağı ehtimalı var:** "Hazırda qiymət 20 qəpikdir, 30 qəpiyə qədər qalxa bilər. Əvvəllər də belə bir rəqəm səsləndirilmişdi. Çünki qurum hesablamalar nəticəsində belə bir qənaətə gəlmişdi ki, bir sərnişinin daşınması üçün metropoliten 50-55 qəpik xərcləyir. Qiymətin birdən-birə o dərəcədə artacağını düşünmürəm. Ancaq ən azından indiki qiymətlərin üzərinə 10 qəpik gəlməklə gedişhaqqının artırılması ehtimalı var. Vətəndaşların nəqliyyat xərcləri artdıqca, digər xərclərə qənaət etməyə məcbur olacaqlar. Xərclərin digər istiqamətlərində dəyişiklik etməyə məcbur olacaqlar. Ən azından 10 qəpik artsa və vətəndaş gediş-gəliş üçün ən azı iki dəfə metrodan istifadə etsə, həftədə təxminən 1.4 manat, ayda isə 6 manata yaxın əlavə vəsait ödəyəcək".

**"Bakı Metropoliteni"nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev isə "Yeni Müsavat"a açıqlamasında qiymətlərlə bağlı qərarın Nazirlər Kabineti tərəfindən verildiyini qeyd etdi:** "Qiymətin nə qədər artırılıb-artırılmaması ilə bağlı mən hər hansı açıqlama verə bilmərəm. Bu çox mürəkkəb məsələdir. Bildiyiniz kimi, metropolitendə bir sərnişinin daşınma xərci onun ödədiyi genişhaqqından bahadır. Bu rəqəm də illər üzrə dəyişir. Məsələn, ötən il üçün bir nəfərin metrodan istifadəsi 54 qəpiyə başa gəlmişdi. Onun 20 qəpiyini sərnişin ödəyir, qalan hissəsi isə subsidiya olaraq nəzərdə tutulur və dövlət tərəfindən ödənilir. Dövlət sosial layihələr həyata keçirərkən, qiymətin artırılmasını məqsədəuyğun hesab etmədiyi bu kimi sahələrə subsidiya verir. İndi hansısa təşkilat belə bir təklif irəli sürür. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətdir və Nazirlər Kabinetinin nəzdindəyik. Hansı qərar verilərsə, o qərarı da icra etməyə hazırıq. Əgər subsidiya ayrılmasa, biz ziyanla necə işləyəcəyik, onu bilmirəm. Çünki bizim başqa gəlir yerimiz yoxdur. Bir sərnişindən topladığımız geniş haqlarıdır, bir də dövlətin ayırdığı subsidiyalardır. O subsidiya ayrılmasa, biz elektrik xərclərini necə ödəyəcəyik, insanların maaşlarını necə verəcəyik? Bu gün gördüyümüz işləri necə həyata keçirəcəyik? Metropolitenə hər il təxminən 38 milyon manat civarında subsidiya ayrılır. Bu da zərərin qarşılanması və dövlət hesabına görülən işlərin həyata keçirilməsi üçündür".

❑ Nərgiz LİFTİYEVA

# İki xalq artistinin məhkəmədə "şortik" qalmaqalı

## Ramiz Məlik Məleykə Əsədovadan üzr istəyib, qarşı tərəf isə "dizin-dizin sürünməli" şərti qoyub

**Noyabrın 30-da xalq artistləri Ramiz Məlik və Məleykə Əsədovanın "şortik" qalmaqalı ilə bağlı ilk məhkəmə prosesi keçirilib. Məhkəmədə xalq artisti Ramiz Məlik həmkarından üzr istəsə də, proses dekabrın sonun qədər uzadılıb. Bu barədə xalq artisti Ramiz Məlik "Yeni Müsavat"a açıqlamasında bildirib. Xalq artisti qeyd edib ki, məsələyə son qoymaq istəsə də, həmkarı razılaşmayıb:**





"Mən barışmaq üçün addım atmışam, əl uzatmışam. Məhkəmədə də bunu dedim. Amma onun son açıqlamasından yəqin ki, xəbərdarsız, deyib ki, mən sürünə-sürünə ondan üzr istəməsəm bağışlamayacaq. Utanmır o?! Əgər özündə mədəniyyət, tərbiyə görürsə, necə deyə bilər ki, 74 yaşında kişi onun qarşısına sürünə-sürünə gəlsin?! Mənim 74, onun 50 yaşı var. Onun yaşı qədər mənim sənət fəaliyyətim var. 50 il bundan əvvəl səhnəyə gəlmişəm. Bu hansı mədəniyyətə, əxlaqa, tərbiyəyə sığar?! Bu sualı ona vermək lazımdır ki, ağsaqqal kişiyə bu cür sözü deməklə utanmırsan?"

**Ramiz Məlik qalmaqalın başlanma səbəbini də xatırladıb:**

"Məsələdən yəqin ki, xəbəriniz var. Mən demişdim ki, şortiklə ortaya çıxma. Axı sənin ad-sanın, teatrın, sənin imicin var. Bundan sonra o, mənim evimə zəng edib,ailəmi, qızımı, qız nəvələrimi təhqir edib, özü də küçə söyüşləri ilə. Sizcə, bundan sonra ona necə cavab verməliydim? Mən onun söyüşlərinə söyüşlə cavab verməliydim də. Dönüb bir arxasına baxsın ki, haradan gəlib. Hər bir adam dönüb arxasına baxmalıdır ki, haradan gəlib, hara çıxıb və nələrdən çıxıb və sairə.

Məhkəmədə deyilir ki, BMT-nin, ATƏT-in, Avropa İnsan Haqlari Məhkəməsinin qərarları və sairə... Bir o qalıb ki, haqqımda asılma və ya güllənmə iddiası qaldırılsın. Bu nə deməkdir axı?!"

**Qeyd edək ki, xalq artisti Məleykə Əsədovanın vəkili Tağı Hüseynov sputnik.az-a açıqlama verərək bildirib ki, əgər Ramiz Məlik dizin-dizin sürünüb aktrisadan üzr istəməsə, məhkəmə prosesləri hələ uzun müddət davam edəcək:**

"Məleykə xanım deyir ki, Ramiz Məlik dizin-dizin sürünüb, atamın, anamın qəbrinin üstünə gəlib üzr istəməlidir. Çünki o, KİV-də açıq-aydın açıqlama verərək bildirib ki, sənin ananı da atan fahişəlik üstündə boşayıb".

**Xalq artistlərinin qalmaqallı məhkəməsi ilə bağlı Azərbaycan Dövlət Dram Teatrı rəhbərliyinin mövqeyini öyrənməyə çalışdıq. Teatrın mətbuat katibi Cavid Zeynallı "Yeni Müsavat"a açıqlama verərək baş verən olayın xoşagəlməz hal olduğunu bildirib:** "Hər iki xalq artisti arasında olan münasibətlər hələ məhkəmə predmeti olmazdan əvvəl Teatr Xadimləri İttifaqının sədri, Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru Azər Paşa Nemətov bu məsləyə münasibətini bildirmişdi. Azər Paşa Nemətov xalq artistləri arasında baş verənləri təəssüf hissi ilə qarşıladığını qeyd etmişdi və biz yenə eyni fikirdəyik. Bir daha qeyd edirik ki, Məleykə Əsədova və Ramiz Məlik arasında baş verənlər xoşagəlməz haldır.

Onlar hər ikisi bizim gözəl sənətkarımızdır, indiyə qədər Akademik Milli Dram Teatrında yaddaqalan, sevilən rollar yaradıblar. Ramiz Məlik Məleykə Əsədovadan üzr istəyib və bildirib ki, bu söhbətə son qoyulmasını istəyir. İnanıram ki, Məleykə Əsədova da onu anlayışla qarşılayacaq, üzrünü qəbul edəcək. Bizim teatr bir ailədir, ona görə də bu ailədə baş verənlərin kənara çıxmasını arzu etmirəm. Çünki hər ikisi sənətkar kimi insanların rəğbətini, sevgisini qazanıblar. İnanırıq ki, məhkəmə müstəvisinə qədər böyüyən bu məsələ tezliklə öz həllini tapacaq, hər iki sənətkarımız arasında barışıq olacaq və gələcəkdə bu cür xoşagəlməz hallarla üzləşməyəcəyik".

Xatırladaq ki, Azərbaycan Dövlət Dram Teatrının aparıcı aktyorları arasında yaranmış bu qalmaqala səbəb Məleykə Əsədovanın şortikli şəkillərini "İnstagram" səhifəsində paylaşması olub. Xalq artisti Ramiz Məlik buna görə aktrisanın ünvanına tənqid yağdıraraq bildirib ki, xalq artisti adını daşıyan şəxs sosial şəbəkələrə açıq-saçıq, eləcə də mini-şortikdə çıxmamalıdır. Onun sözləri Əsədovanı özündən çıxarıb və o, Ramiz Məliki məhkəməyə vermək qərarına gəlib. O, həmkarından şərəf və ləyaqətinin təhqirinə görə 200 min manat məbləğində təzminat tələb edir.

Onu da xatırladaq ki, xalq artistlərinin arasında yaranmış "şortik qalmaqalı" bir müddət əvvəl erməni mətbuatında da müzakirə edilmişdi.

❑ Xalidə GƏRAY

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 251 (6865) 1 dekabr 2017

# Qarabağa dair Ankara məsləhətləşmələri - Türkiyə fəallaşır

Türkiyə xarici işlər naziri Minsk Qrupu həmsədrləri ilə bir araya gələndən sonra Bakıya səfər etdi; Ermənistanın Qarabağdakı hərbi təlimlərinə Türkiyə ordusundan Ağrı cavabı; ekspertlər son durumu şərh edirlər...

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya Federasiyası), Stefan Viskonti (Fransa), Endrü Şofer (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşiklə görüşü təkcə Azərbaycanda deyil, Ermənistanda da maraq doğurub. İşğalçı ölkənin mediası Türkiyə XİN başçısının həmsədrlərlə görüşdən bir neçə saat sonra Bakıya gəlməsini də xüsusi vurğulayıblar.**






Düzdür, M.Çavuşoğlu Bakıya "Asiyanın Qəlbi" - İstanbul prosesi və bu çərçivədə Azərbaycanın ev sahibliyi etdiyi 7-ci nazirlər konfransında iştirak üçün gəlib. Lakin istənilən halda, onun məhz bu ərəfədə Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsini qəbul etməsi təsadüfi ola bilməz. Üstəlik, Azərbaycanla yüksək səviyyəli münasibətlərdə olan Pakistanın xarici işlər nazirinin də sözügedən konfransda iştirak üçün paytaxtımıza gəlməsi işğalçı ölkədə əlavə həyəcan doğurub. Pakistan o ölkələrdəndir ki, bu günə qədər Ermənistanla diplomatik münasibətlər qurmaqdan imtina edib və Qarabağın işğaldan azad olunması naminə Azərbaycana hər cür dəstək verməyə hazır olduğunu daim bəyan edir. Bu mənada Bakıda keçirilən ikitərəfli və üçtərəfli görüşlərdə Qarabağ məsələsinin də diqqət mərkəzində olacağına əvvəlcədən kimsə şübhə edə bilməzdi.

Bu mənada ermənilərin narahatlığı anlaşılandır. Elə üçtərəfli tədbirin yekununda qəbul olunan bəyannamə də dediklərimizi təsdiqləyir. Azərbaycan, Pakistan və Türkiyə xarici işlər nazirlərinin Bakıda keçirilən ilk üçtərəfli görüşündə dövlətlərin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə qarşılıqlı hörmət və qəti dəstəyi bir daha bəyan edib, öz ərazilərindən bir-birilərinə qarşı fəaliyyət məqsədilə istifadə edilməyəcəyini vurğulayıblar (APA). Nazirlər ölkələrinin yerləşdiyi müvafiq regionlarda münaqişələrin davam etməsinin təəssüf doğurduğunu bildirərək, günahsız mülki şəxslərin zərər görməsi və ərazi bütövlüyünə qarşı gücdən istifadə edilməsini qınayıb, bu münaqişələrin sülh, sabitlik və iqtisadi inkişafa mane olduğunu və beynəlxalq hüququn yuxarıda sadalanan prinsipləri və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında siyasi yolla həllini tələb etdiklərini vurğulayıblar.

Yeri gəlmişkən, Pakistan-Azərbaycan münasibətlərinə "cavab" olaraq Hindistanla əlaqələr qurmağa cəhd edən Ermənistanı narahat edən daha bir rəsmi səfər reallaşıb. Belə ki, Pakistanın XİN başçısı ölkəmizdə olduğu bu günlərdə Hindistanın xarici işlər üzrə dövlət naziri Mobaşar Caved Akbarın başçılıq etdiyi nümayəndə heyəti Bakıda yüksək səviyyədə qəbul olunub, görüşlərdə münasibətlərin daha da inkişaf etdirilməsi zərurətindən bəhs olunub.

Bütün bunlar isə Ermənistanın narahatlığını artıran faktorlardır. "Həmsədrlərlə Ankarada görüşdüm və Türkiyənin Minsk qrupuna dəstəyini bir daha qeyd etdim" - Çavuşoğlu şəxsi twitter səhifəsində yazıb. Türkiyəli nazir görüşün detalları haqda əlavə heç nə yazmayıb. Ancaq Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın son bir ayda Rusiya prezidenti V.Putinlə iki dəfə bir araya gəlməsi, bu görüşlərdə Qarabağ məsələsinə də yer ayrıldığını deməsi və Türkiyənin məsələyə həssas yanaşdığını söyləməsi Ankaradakı görüşün məram-məqsədinə işıq salır.

**Qərbi Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu da "Yeni Müsavat"a açıqlamasında Türkiyə görüşünün önəmindən bəhs etdi.** "Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu noyabrın 29-da ATƏT-in Minsk Qrupu həmsədrləri ilə görüşdü. Türkiyə Minsk Qrupunun üzvüdür. Ona görə də Türkiyə xarici işlər nazirinin həmsədrlərlə görüşü anlaşılandır. Sadəcə, Minsk Qrupunun başqa üzvləri də var və həmin ölkələrin rəsmiləri həmsədrlərlə görüşlərə maraq göstərmirlər. Türkiyə isə vasitəçilik təşəbbüslərində fəallığını getdikcə artırır".

**Bəs Türkiyənin xarici işlər nazirinin həmsədrlərlə son görüşü nə deməkdir? E.Şahinoğlu:** "Birincisi, bununla Ankara demək istəyir ki, Dağlıq Qarabağ münaqişəsinin uzanmasından və Azərbaycan torpaqlarının işğal altında qalmasından narazıdır. Təsadüfi deyil ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putinlə son görüşlərində Qarabağ mövzusunu da gündəmə gətirir. Doğrudur, nəticə yoxdur, ancaq bütün hallarda bu Ankaranın fəallığını artırmasına işarədir. İkincisi, Mövlud Çavuşoğlu həmsədrlərlə görüşməklə hamıya mesaj göndərir ki, Türkiyənin Cənubi Qafqazda maraqları Rusiyanın maraqlarından az deyil. Bölgənin enerji resursları və boru xətləri Türkiyəyə uzanır. Deməli, Ankaranın fəallığı tək elə bu səbəbdən də anlaşılandır. Əsas sual budur: Kreml Ankaranın Qarabağ münaqişəsinin həllindəki artan fəallığına mane olmayacaq ki? Türkiyə xarici işlər nazirinin həmsədrlərlə görüşü rəsmi İrəvanın narazılığına səbəb olacaq. İrəvan hər şeyi edəcək ki, Türkiyə danışıqlar prosesində vasitəçi olmasın. Əslində Kremldən də Ankaranın fəallığına müsbət reaksiya yoxdur. Məsələn, Rəcəb Tayyib Ərdoğan bir neçə günün içində eyni fikri iki dəfə təkrarladı: "Dağlıq Qarabağ münaqişəsinin həlli Putindən asılıdır". Türkiyə prezidenti haqlıdır. Münaqişənin həlli Rusiya prezidenti Vladimir Putinin əlindədir. Bunun iki səbəbi var. Birinci səbəb odur ki, Ermənistan tamamən Rusiyadan asılıdır və işğalçı dövlət Kremlı sahibinin əmr və tapşırıqlarını yerinə yetirmək məcburiyyətindədir. İkinci səbəb Putinin Rusiyada reytinqinin yüksək olmasıdır. O, Ermənistanı Azərbaycanla sülhə məcbur etsə, Rusiyada əksəriyyət buna mane ola bilməyəcək. Sadəcə, Kreml sahibi əlində olan bu imkandan Azərbaycanın xeyrinə istifadə etmək istəmir. Əlbəttə, Putin Ərdoğanın Qarabağla bağlı təkliflərini dinləyəcək, ancaq həmin təkliflərin reallaşması üçün heç nə etməyəcək".

**Maraqlıdır, Ankarada görüş günü Türkiyə ordusu Ermənistanla sərhəddə, Ağrı bölgəsində PKK əleyhinə əməliyyatlar keçirdi. PKK-nın Ermənistana, oradan da Qarabağa sızması barədə xəbərlərin fonunda bu əməliyyat xeyli maraq doğurur. Ancaq eyni gündə Ermənistan ordusu da işğal altındakı torpaqlarımızda növbəti təlimini reallaşdırdı. E.Şahinoğlunun fikrincə, Ankaranın Ermənistan hakimiyyətinə mesaj verdiyini söyləmək olar:** "Deyilə bilər ki, sən Azərbaycanın işğal altındakı torpaqlarında hərbi təlimlər keçirməklə Azərbaycanın əsəbləri ilə oynayırsansa, biz də sərhəddə hərbi əməliyyatlar keçirməklə sənin rahatlığını pozacağıq".

**Bununla belə, politoloq Türkiyədəki təmasların gərginliyin səngidilməsinə yönəldiyini də zənn edir:** "Bir növ Ankaranı sakitləşdirmək istəyirlər. Sadəcə, gərək Ankara ancaq məsləhətləşmələrlə kifayətlənməsin, fəallığını artırsın".

Bu arada məlum olub ki, Azərbaycan və Ermənistan XİN başçıları gələn həftə görüşəcəklər. **"Dekabrın 6-da həm həmsədrlərlə, həm də Errmənistan xarici işlər naziri ilə görüşəcəyəm". Bu sözləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakıda türkiyəli və pakistanlı həmkarları ilə keçirilən görüşdən sonra deyib. Nazir bildirib ki, Azərbaycan bu görüşə razılıq verib.** "Biz həmişə deyirik ki, məntiqli və substantiv danışıqlar olmalıdır. Moskva görüşündə həmsədrlərlə dərin və ətraflı müzakirə apardıq. Həmsədrlər yəqin bu istiqamətdə danışıqları davam etdirəcək", - deyə o qeyd edib.

**Xatırladaq ki, görüşün ATƏT xarici işlər nazirləri şurasının Vyanada keçiriləcək toplantısı səviyyəsində keçirilməsi gözlənilir. Deməli, Ankara ilə məsləhətləşmələr elə Vyana görüşü üçün də lazım imiş.**

"Həmsədrlərin Türkiyənin xarici işlər naziri Mövlüd Çavuşoğlu ilə görüşü Ankaranın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesindəki rolunun qəbul edilməsi barədə daha öncə söylədiyim fikirləri bir daha təsdiqləyir". **Bunu isə qəzetimizə politoloq Elçin Mirzəbəyli** söylədi. Onun fikrincə, Türkiyənin prosesdə aktiv yer alması vacib amildir və Ankara ilə Bakının mühüm uğuru kimi qiymətləndirilməlidir. E.Mirzəbəyli düşünür ki, həmsədrlərin Ankaraya səfəri və Mövlud Çavuşoğlu ilə görüşləri müstəvisində İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin İrəvanda səsləndirdiyi bəyanatlar da diqqətə alınmalıdır: "Xatırlatmaq istəyirəm ki, dekabrın 1-də Zərif Bakıya səfər edəcək. Azərbaycana səfər öncəsi iranlı nazirin İrəvanda Ermənistanın ünvanına tərif yağdırması Tehran rejiminin Bakı-Ankara əməkdaşlığına və Türkiyənin regiondakı mövqelərinin möhkəmlənməsinə ənənəvi qısqanc münasibətindən irəli gəlir. Tehran Türkiyə-Rusiya münasibətlərinin inkişafına da eyni qısqanclıqla yanaşır. Sadəcə, İraq və Suriyada cərəyan edən proseslər kontekstində hər iki ölkə ilə əlaqələrini normal məcrada saxlamaq üçün bunu daha qabarıq şəkildə nümayiş etdirmir".

**Politoloq hesab edir ki, Zərifin İrəvana səfəri və Bakıya gəlişi öncəsi İranın Ermənistanla bağlı sərgilədiyi mövqeyə ən tutarlı cavab Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlıq formatının ortaya qoyulmasıdır:** "Pakistan və Türkiyənin Ermənistanla diplomatik əlaqələri yoxdur. Pakistan, ümumiyyətlə, Ermənistanı bir dövlət kimi tanımır. Ankara və İslamabadın Azərbaycanın ərazi bütövlüyü ilə bağlı nümayiş etdirdikləri mövqe əslində rəsmi Tehran üçün həm İslam həmrəyliyi, həm beynəlxalq hüquq normaları, həm də, sadəcə, insanlıq baxımından nümunə olmalıdır. Əks təqdirdə, İranın saxta İslam həmrəyliyi bu ölkənin İslam dünyasından da "sürgün" edilməsinə zəmin yaradacaq".

Yeri gəlmişkən, Ermənistana daha bir zərbə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasıda vurulub. Kiyevdə keçirilən 50-ci Baş Assambleyanın iclasında təşkilatçı Ukrayna tərəfi Rusiya nümayəndə heyətini tədbirə dəvət etməyib. Öz növbəsində, Ermənistan nümayəndə heyəti assambleyanın iclasını boykot edib. Bu cür addımın atılmasına səbəb kimi Ukraynanın yekun bəyannaməsinə təklif etdiyi düzəlişlərin müzakirəsi olub. Bəyannamədə deyilir: **"QDİƏT dövlətlərinin BMT, ATƏT, AŞPA və Avropa Parlamenti kimi beynəlxalq təşkilatlar tərəfindən tanınmış ərazi bütövlüyünün bərpası üçün səy göstərilməlidir".** Ukraynanın təklif etdiyi düzəliş təşkilata daxil olan əksər milli nümayəndə heyətləri tərəfindən qəbul edilib. Bəyannamə Ermənistanda hiddətlə qarşılanıb. Ölkədə QDİƏT-dən çıxmaq məsələsi gündəmə gətirilib. Tədbirdə Azərbaycan nümayəndə heyəti aktiv iştirak edib. Azərbaycanın aldığı dəstək fonunda Ermənistanın Minskdə keçirilən KTMT-nin toplantısında Qarabağla bağlı sənəd təqdim etməsi və üzvlərin dəstəyini almaq cəhdi çıxılmazlıq sindromu kimi qiymətləndirilə bilər.

YENİ MÜSAVAT
N 251 (6865) 1 dekabr 2017

# Eldar Mahmudov 2018-ci ili həbsdə qarşılaya bilər

## İddiaya görə, sabiq MTN şefi barəsində ittihamnamə hazırlanır

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) Antiterror Mərkəzinin rəisi, general-mayor Elçin Quliyev və mərkəzin əməkdaşı, polkovnik Azər Mehdiyevə noyabrın 30-da hökm oxunub. "Mən generalam" deyən Elçin Quliyev 10 il 6 ay, Azər Mehdiyev isə 8 il müddətinə azadlıqdan məhrum ediliblər. Hər 2 şəxs sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun qanunsuz əmrlərini yerinə yetirən, "vurub-yıxan" komandasına daxil olan "MTN-çi"lər kimi tanınırdılar.**



2015-ci ildə Eldar Mahmudov vəzifəsindən çıxarılandan və MTN-də qəfil yoxlamalar başlanandan sonra 20-yə yaxın "mahmudovçu" həbs edilmişdi. Həmin vaxt Elçin Quliyev kənarda qala bilsə də, onun müavini İlqar Əliyev həbsə alınmışdı. Sonradan İ.Əliyev saxlandığı Bakı İstintaq Təcridxanasında müəmmalı şəkildə dünyasını dəyişdi. Lakin onu kamerası boş qalmadı. Rəisi olmuş Elçin Quliyevi həbsə alıb Bakı İstintaq Təcridxanasına göndərdilər. E.Quliyev ibtidai istintaq zamanı, sonradan məhkəməsində üzvü olduğu komandanın uzun illər başçısı olmuş Eldar Mahmudovun əleyhinə danışmır, ifadələr vermirdi. Məhkəməsinin sonlarına yaxın isə Elçin Quliyevin söylədikləri bir anın içində bütün mətbuatı əhatə etdi. "Mən generalam" deyib sinəsinə döyən E.Quliyev sabiq şefinin qanunsuz əmrlər verməsindən danışdı. Dedi ki, Eldar Mahmudov deyib, onlar da keçmiş iş yoldaşları Mətləb Mustafayevin qardaşı Malik Mustafayevin evinə odlu silah qoyublar, onu həbs ediblər. Bu çox ciddi ittihamı Elçin Quliyev məhkəmədə dilə gətirdiyi günlərdə Eldar Mahmudovu Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində dindirir, sorğu sual edirdilər. Bu sorğu sualdan əvvəl isə Eldar Mahmudovun əmisi oğlu, köməkçisi Vüqar Mahmudovu da həmin idarəyə çağırıb həbsə almışdılar. Belə təəssürat yaranmışdı ki, Eldar Mahmudovu da 1-2 dəfə istintaqa çağırıb dindirəcək və çağırışların birində həbs edəcəklər. Elçin Quliyev də belə günlərin birində sabiq şefinə qarşı ifadələr verməyə başlamışdı.

Eldar Mahmudov vəzifədən çıxarılandan sonra ətrafında yaranan müəmmalı vəziyyət isə davam etməkdədir. İstintaq İdarəsinə sonuncu çağırışı da bir neçə saatlıq dindirmə ilə başa çatmış, sonra Eldar Mahmudov binadan çıxıb bahalı maşınına tərəf addımlamışdı. Həmin vaxt MTN-çilərin əməllərindən zərərçəkən bir qrup onu əhatəyə almış, ürək sözlərini demişdi. Bu haqda mətbuatda çeşidli yazılar yazılandan sonra məlum oldu ki, E.Mahmudovu istintaqa daha açıq-aşkar dəvət etməyəcəklər. Gizli çağıracaqlar, dindirəcəklər. Belə görünür ki, zərərçəkənlərin E.Mahmudovu əhatəyə almaları, ona o qədər də xoş olmayan söz demələri dolayısı ilə də olsa, sabiq nazirin ziyanına olmayıb. Onu daha dindirməyə də çağırmırlar. Belə görünür ki, sabiq nazir qurtulub və ya onunla bağlı proses son dərəcə məxfi aparılır. Bir mənbənin məlumatına görə isə sabiq MTN şefinin barəsində ittihamnamə hazırlanır və o, 2018-ci ili həbsdə qarşılaya bilər.

❑ E.HÜSEYNOV

# Cahangir Hacıyevi tam izolyasiyada saxlayırlar-vəkili danışır

## "Heç bir işdə, siyasi işlərdə belə bu dərəcədə qanunsuzluq olmayıb"

**13 saylı cəzaçəkmə müəssisəsində saxlanılan Beynəlxalq Bankın İdarə Heyətinin keçmiş sədri Cahangir Hacıyevə vəkili və yaxınları ilə görüşməyə icazə verilmir.**



C.Hacıyevin vəkili Aqil Layıcov deyir ki, bu il sentyabrın 20-dən etibarən müvəkkili ilə görüşə imkan vermirlər: "Vəkili olaraq mənə və Cahangir Hacıyevin yaxınlarına onunla heç bir səbəb göstərilmədən görüş vermirlər. Dəfələrlə Penitensiar Xidmətə, Ədliyyə Nazirliyinə şikayətlər yazmışıq. Penitensiar Xidmətdən bizə formal cavablar verilir. Qanundan çıxarış yollayırlar, orada yazılıb ki, məhkumun vəkili ilə görüşmək hüququ var. Bunu bizə göndərməsələr də bilirik ki, vəkillə müvəkkilinin görüşmək hüququ var. Qanunu icra etmək əvəzinə belə formal cavablar verməklə görüşümüzə imkan vermirlər".

**Vəkil deyib ki, görüşlərinə yaradılan qanunsuz maneələrin aradan qaldırılması ilə bağlı məhkəmələrə də müraciətlər ediblər:** "Heç bir işdə, siyasi işlərdə belə bu dərəcədə qanunsuzluq olmayıb. Məhkəməyə müraciət edib görüşə yaradılan maneələrin aradan qaldırılmasını istəyirik. Məhkəmələr şikayətimizi icraata qəbul etmirlər. Vəkillə görüş qadağan oluna bilməz".

**A.Layıcov bildirib ki, C.Hacıyevin səhhət durumunun nə yerdə olduğundan xəbərsizdirlər:** "1 həftə cərimə kamerasına salmışdılar. Ora salınması qanunsuz olub. Cərimə kamerası çox soyuq olub. Ona lazım olan paltarları belə verməyiblər. Həmin vaxt Cahangir Hacıyev ölüm vəziyyətində olub. Təcili tibbi yardıma ehtiyacı olub, amma həkim gətirməyiblər. Ona dərmanlarını belə verməyiblər. Bunu qəsdlə edirlər. Orada 7 gün saxlanıldıqdan sonra həkimlə görüşə bilib. Həkim onun durumunun kritik olduğunu deyib. Hər gün cəzaçəkmə müəssisəsinə gedib Cahangir Hacıyevlə görüşmək istəyirik. Hər gün də deyirlər ki, rəis burada deyil, sabah gələrsiz. Cərimə kamerasında qanunsuz saxlanma ilə bağlı da məhkəməyə müraciətlərimiz olub. Lakin məhkəmələr heç bir əsas gətirmədən müraciətlərə baxmırlar".

**Vəkil deyir ki, bütün bu qanunsuzluqların hansı məqsədlə edildiyindən xəbərsizdirlər:** "Penitensiar Xidmət bunun səbəbini bizdən yaxşı bilir. Onlara müraciət edirəm ki, bizə qanundan çıxarış göndərmək əvəzinə qanunun icrasını təmin etsinlər. Qanunlarda nə yazılıb biz çox yaxşı bilirik. Məhkəmələrin də qanunsuz qərarlarından apelyasiya şikayəti vermişik".

**A.Layıcov bildirir ki, Penitensiar Xidmətə, Ədliyyə Nazirliyinə, Baş Prokurluğa və ombudsman Elmira Süleymanovaya dəfələrlə müraciətlər edib:** "Hər bir quruma ayrılıqda 10 dəfədən çox müraciətlərim olub. Elmira Süleymanova sanki insan haqları üzrə müvəkkil deyil. Ombudsman bizim müraciətlərimizə reaksiya belə vermir".

**Vəkil deyib ki, görüş verilməyincə, hüquqi müstəvidə müraciətlərini davam etdirəcəklər:** "Cahangir Hacıyevlə görüşmək üçün əlimizdən gələni edəcəyik. Topumuz yox, tüfəngimiz yox, şikayətlər yazacaq, görüş hüququnun verilməsi üçün mübarizəmizi davam etdirəcəyik".

Xatırladaq ki, Cahangir Hacıyev 2015-ci il dekabrın 5-də həbs olunub. 2016-cı il oktyabrın 14-də Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 15 il azadlıqdan məhrum edilib.

❑ E.MƏMMƏDƏLİYEV

# Şəhid qızını maşınla öldürən yeniyetmə həbs edildi, atası coşdu

## Bəsti Qədimova: "Deyir ki, mənim oğlum 1 il də yatmayıb çıxacaq"

**Şəhid Elton Əkbərovun qızı 1975-ci il təvəllüdlü Könül Əkbərovanı "JEEP" markalı, ağ rəngli, Az 90 FO 007 nömrə nişanlı avtomobillə vuran 17 yaşlı Rəhim Rəhimli saxlanılıb. 3 uşaq anası olan K.Əkbərovanı noyabrın 8-də, 19:30-da Bayraq meydanı yaxınlığında "JEEP" markalı, ağ rəngli, Az 90 FO 007 nömrə nişanlı avtomobil vurub. Sürücü qadını köməksiz vəziyyətdə qoyaraq hadisə yerindən uzaqlaşıb. 3 uşaq anası olan qadın hadisə yerində keçinib. K.Əkbərovanın anası Bəsti Qədimova qəzetimizə açıqlamasında demişdi ki, qızının ölümü ilə nəticələnən qəzanı törədən sürücünü istintaqdan yayındırırlar. Şəhid yoldaşının şikayəti qəzetdə dərc olunandan sonra sürücü Rəhim Rəhimov saxlanılıb.**



Bu haqda redaksiyamızı bilgiləndirən Bəsti Qədimova deyir ki, Bakı Şəhər Prokurorluğunda olarkən ona deyiblər ki, Rəhim Rəhimovu həbs ediblər: "20 gün idi ki, axtarışda idi, müstəntiq onu tapmırdı. Qəzetlərə şikayət etdim, Rəhim Rəhimovu tapdılar. Mən müstəntiqin yanına getdim, başladı ki, niyə gedib qəzetlərə danışmısız?"

**B.Qədimova deyib ki, hüquq-mühafizə orqanında R.Rəhimovun valideyni Akif Rəhimov onunla çox sərt danışıb:** "Rəhimin atası Akif Rəhimov polis bölməsində elə danışdı ki, sanki mənim övladım onun uşağını vurub öldürüb. Deyir ki, sənin qızın yolu oradan niyə keçirdi ki, mənim oğlum da onu maşınla vursun. 17 yaşl sürücülük vəsiqəsi olmayan oğluna maşını verib, indi bizi də günahkar çıxarır. Deyir ki, nə olsun ki, mənim oğlumun "pravası" olmayıb, buna görə 600-700 manat cərimə var də. Akif Rəhimov oğlunun etdiyi hərəkətə haqq qazandırır. Belə çıxır ki, bu gün uşağı buraxacaqlar, bu da 600-700 manat cərimə ödəyəcək və gedib daha bir adamın üstündən maşınla keçəcək?

Akif Rəhimova dedim ki, müsəlman deyilsiz? Bir gün də gəlib qapımı döyüb demədiniz ki, Allah rəhmət eləsin. Özlərini elə aparırlar ki, sanki bunlar yüksək təbəqənin insanlarıdır, bizlər də bunların nökərləriyik. Bizlər ali savadlı adamlarıq. Bunlar elə bilirlər ki, savadı olmayanı əzib keçmək olar. Bu adamların düşüncəsi, davranışları adamı dəhşətə gətirir. Akif Rəhimov mənə deyir ki, mənim oğlum oxuyub diplomat olacaqdı. Adam nəzərə almır ki, mənim qızımı vurub öldürüb. Mənim uşağım dünyadan köçüb, bu adamın oğlu vurub, mənim qızımı öldürüb. Amma mənimlə elə danışırlar ki... Deyir ki, mənim oğlum 1 il də yatmayacaq, çıxacaq. Onun 17 yaşı var, niyə həbsə getməlidir? Dedim ki, oğlunu qudurtmazdın, 17 yaşında altına tank boyda maşın verib şəhərin küçələrinə buraxmazdın. Bu hadisənin baş verməsində birinci günahkar elə sənsən. Qızımı hadisə yerində qoyub qaçmasaydılar, bəlkə də bu gün sağ olardı".

**Qeyd edək ki, B.Qədimova demişdi ki, qızını vuran sürücünün idarə etdiyi maşın da daxil olmaqla, 3-4 maşın Salyan şosesində yerləşən "Manqal" restoranına gedirmişlər:** "Bunlar dövlətlilərin uşaqları olub, ad gününə, yeyib-içməyə gedirmişlər. Qəzanı törədib və maşını orada qoyaraq qaçıb. Qızıma yardım etməyiblər, xəstəxanaya aparmayıblar".

Hazırda qəza ilə bağlı Səbayel Rayon Polis İdarəsinin İstintaq Şöbəsində müstəntiq Vüqar Abbasov istintaq aparır. B.Qədimova istintaqın gedişindən narazı olduğunu da bildirib.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 251 (6865) 1 dekabr 2017

# Qeyri-rəsmi məşğulluqla mübarizə başlayır- Əli Əhmədov təfərrüatı açıqladı

## Baş nazirin müavini: "1,5 milyon nəfər vergi və sosial ödənişlər etməyən şəxslərdir; bu, qeyri-rəsmi iqtisadiyyatın yaranması üçün münbit zəmindir"

**Azərbaycanda əmək münasibətlərini rəsmiləşdirmədən çalışanların sayı 1,5 milyon nəfərə yaxındır. Bu məlumatı baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının rəhbəri Əli Əhmədov "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın icrası ilə bağlı keçirdiyi brifinqdə səsləndirdi.**



Ə.Əhmədovun sözlərinə görə, ölkədə 5 milyon nəfər iqtisadi fəal əhalinin 4,7 milyon nəfəri məşğuldur. Bunun 1,7 milyon nəfəri kənd təsərrüfatı ilə məşğul olanlar, 1,5 milyon nəfəri muzdla çalışanlardır. Qalan 1,5 milyon nəfər isə qeyri-rəsmi məşğul olanlardır: "Bunlar əmək münasibətlərini rəsmiləşdirməyən, ondan vergi və sosial ödənişlər etməyən şəxslərdir. Bu rəqəmlər göstərir ki, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması cəmiyyətin qarşısında duran çox ciddi sosial vəzifələrdən biridir".

**Baş nazirin müavini hökuməti bu sahədə narahat edən əsas məqamları da açıqladı:** "Əvvəla, qeyri-rəsmi məşğulluq qeyri-rəsmi iqtisadiyyatın yaranması üçün münbit zəmindir. Buna görə də Azərbaycan hökuməti bu vəziyyətin aradan qaldırılmasını istəyir. Qeyri-rəsmi məşğulluq həmçinin böyük həcmdə vergidən, sosial ödənişlərdən yayınmalara yol açır. Bu hal əmək fəaliyyəti ilə məşğul olan insanların sosial və əmək hüquqlarının tam şəkildə həyata keçirilməsinə mane olur. Bütün bunlarla yanaşı, qeyri-rəsmi məşğulluq məşğulluq statistikamızın da qeyri-dəqiq olmasına gətirib çıxarır. Qeyri-rəsmi məşğulluq həm də insanların gələcəkdə pensiya almaq hüququndan məhrum edir. Buna görə də hökumət özünün borcu hesab edir ki, bu halların qarşısını alsın və gələcəkdə insanlarımız belə sosial problemlə üzləşməsinlər".

### Sosial ödəniş işçi ilə işəgötürən arasında bərabər bölünəcək

**Ə.Əhmədov qeyri-rəsmi məşğulluğun əsas fəsadlarından biri kimi "qara mühasibatlığı" göstərdi. Bildirdi ki, "qara mühasibatlıq" bilavasitə vergi və sosial ödənişlərdən yayınmaq məqsədilə həyata keçirilən fəaliyyətdir:** "Mən buradan sahibkarlara səslənirəm ki, "qara mühasibatlıq" kimi eybəcər fəaliyyətlərdən uzaq olsunlar".

Baş nazirin müavininin sözlərinə görə, 5 hissədən ibarət olan Tədbirlər Planında qeyri-rəsmi məşğulluğun aradan qaldırılmasının əsas istiqamətləri müəyyənləşdirilib. Bunlardan birincisi qanunvericiliyin təkmilləşdirilməsi, əmək münasibətlərinin rəsmiləşdirilməməsinə imkan verən boşluqların aradan qaldırılmasıdır.

İkinci məsələ inzibatçılıq və iqtisadi mexanizmlərin təkmilləşdirilməsidir. Ə.Əhmədov deyir ki, ölkə qanunvericiliyində qeydiyyatsız əmək fəaliyyətinə görə həm işəgötürənlərə, həm də işçilərə yönəlik ciddi cəzalar var. Lakin onların tətbiqi sahəsində müəyyən problemlər var və onların aradan qaldırılması nəzərdə tutulur: "Deyim ki, Avropa ölkələrində belə cəzalar daha ağır və daha sərtdir".

Prezidentin təşəbbüsü ilə bir neçə istisna ilə Azərbaycanda sahibkarlıq subyektlərinin yoxlanması 2021-ci ilədək dayandırılıb. Buna görə də hökumət qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün başqa nəzarət metodlarından istifadə edəcək.

**Ölkədə qeyri-rəsmi məşğulluğun ən yüksək səviyyəsi ticarət və xidmət sektorundadır:** "Cəmiyyətdə belə bir yanlış rəy formalaşıb ki, qeyri-rəsmi məşğulluq tikinti sahəsində daha yüksəkdir. Amma bizim apardığımız araşdırmalar göstərir ki, bu kimi hallara ticarət və xidmət sahələrində daha çox rast gəlinir. Hazırda ayrı-ayrı sahələrdə bu problemin aradan qaldırılması üçün beynəlxalq təcrübə də nəzərə alınmaqla xüsusi tədbirlər işlənir. Məsələn, götürək ticarət sektorunu. Tutalım ki, sahəsi 1000 kvmetr olan ticarət müəssisəsində yalnız 5 nəfərin işləməsi qeyri-mümkündür. Eyni sözləri iaşə sektoru üçün də söyləmək mümkündür. Burada biz xarici təcrübəni də nəzərə almaqla, işçi sayına minimum hədd müəyyənləşdirəcəyik".

**Komissiya sədri həmçinin qeyd etdi ki, stimullaşdırıcı iqtisadi mexanizmlərin tətbiqi imkanları da araşdırılır:** "Gələcəkdə vergi güzəştlərinin tətbiqi, eyni zamanda sosial ödənişlərin yükünün işəgötürənlərlə işçi arasında ədalətli paylanması imkanlarının öyrənilməsi üçün araşdırmalar aparılır".



**Ə.Əhmədovun sözlərinə görə, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün güzəşt tədbiri kimi əmək haqqından ödənilən sosial sığorta haqqının azaldılması nəzərdə tutulmur:** "İnsanların pensiyalarının ödənişini bugünkü səviyyədə təmin etmək üçün Pensiya Fonduna daha az vəsaitin toplanmaması lazımdır. Yəni bugünkü səviyyədən aşağı toplanma olarsa, biz insanların pensiya ödənişlərini təmin edə bilmərik. Buna görə də əmək haqqından ödənilən sosial sığorta haqqı səviyyəsini dəyişmək nəzərdə tutulmur. Bu sahədə gələcəkdə tətbiq oluna biləcək əsas məsələ ödənişlərin iki tərəf - işçi və işəgötürən arasında bərabər bölünməsidir. Bizdə hazırda sovetlər dövründən qalma 22 faiz:3 faizdir. Biz bu nisbəti dəyişmək üçün ilk növbədə qanunvericiliyə böyük dəyişiklik etməliyik. Lakin buna da tezliklə getmək mümkün deyil. Bu iş vaxt tələb edir. Bölgü elə aparılmalıdır ki, sahibkarla yanaşı, işçi də həm psixoloji, həm də əmək haqqının səviyyəsi baxımından buna hazır olsun. Burada biz mərhələ-mərhələ irəliləməyi nəzərdə tuturuq. Sahibkarları da inandırmalıyıq ki, işçinin üzərinə düşəcək yükün bir hissəsini özü qarşılamağa hazır olsun. Bundan əlavə, kənd təsərrüfatı sahəsində məşğul olan əhalinin sosial sığorta ödənişi çox simvolik bir məbləğdir. Biz bunu da qaldırmağa nail olmalıyıq ki, gələcəkdə həmin şəxslər pensiya ala bilsinlər".

### İcbari tibbi sığortaya tam keçid niyə uzanır?

Azərbaycanın bütün ərazisində icbari tibbi sığortanın tətbiqi üçün hazırda dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərdən əlavə, ondan 2-2,5 qat artıq məbləğ tələb olunur. Bunu Ə.Əhmədov jurnalistlərin suallarını cavablandırarkən dedi. Onun sözlərinə görə, ölkədə səhiyyənin maliyyələşməsinin yeni metoduna keçid bir sıra məsələlərə görə gələn ildən mümkün olmayacaq.

Ə.Əhmədovun verdiyi məlumata görə, əsas problemli məsələlərdən biri işləyən əhalinin ödəyəcəyi sığorta haqqının müəyyənləşməsi ilə bağlıdır.

**Baş nazirin müavini konkret rəqəm açıqlamasa da, deyib ki, əmək haqqından ödəniləcək icbari tibbi sığorta haqqı ilkin dövr üçün kiçik bir rəqəmi əhatə edəcək:** "Birdən-birə yüksək faizlərdən başlaya bilmərik. Buna görə də başlanğıc üçün Avropa ölkələrindəki ilə müqayisədə simvolik sayıla biləcək məbləğdən başlayacağıq. Tədricən, əlbəttə ki, təkmilləşmələr gedəcək, icbari tibbi sığorta haqqı da artacaq".

Gələn ildən Mingəçevir və Yevlaxdan başqa rayonlar da pilot layihəyə cəlb edilədək.

**Ə.Əhmədovun fikrincə, icbari tibbi sığortanın tətbiqi insanları əmək münasibətlərini rəsmiləşdirməyə stimullaşdıracaq:** "Ən azı iki rayonun təcrübəsi göstərir ki, icbari tibbi sığortanın tətbiqi insanların öz əmək münasibətlərini rəsmiləşdirməsi üçün stimullaşdırıcı rol oynayır".

**Baş nazirin müavini onu da bildirdi ki, kənd təsərrüfatı sahəsində məşğul olan əhali tibbi sığorta paketini özü əldə etməli olacaq:** "Kənd təsərrüfatı ilə məşğul olan vətəndaşlarımız var ki, qapısında 200-300 qoyunu var. İcbari tibbi sığorta haqqı üçün ondan bir quzunun pulu tələb olunacaq. Bu halda həmin vətəndaşlara qarşı haqsızlıq olunacağını düşünmürəm".

❑ **Dünya SAKİT**

# Rusiya Türkiyə ilə rublla alverə başladı, bəs biz?

## Ekspert: "Türkiyəli və ya iranlı sahibkar necə inana bilər ki, Azərbaycan valyutası qısa müddət ərzində kəskin dəyərsizləşməyəcək"

**Öz milli valyutaları ilə ikitərəfli ticarət aparmaq haqqında qərar verən Türkiyə və Rusiya bu istiqamətdə ilk addımı atıblar. Belə ki, Türkiyə, "S-400" Hava Hücumundan Müdafiə sisteminin alışı üçün rublla avans ödəyib.**

"S-400" HHM sistemlərinin sövdələşməsinin ümumi məbləği 2,5 milyard dollardır.

Qeyd edək ki, bu iki ölkənin öz aralarında milli valyutaları ilə ticarət aparması mühüm bir yenilikdir. Bundan öncə belə bir təklif İran və Rusiya tərəfindən Azərbaycana da edilmişdi ki, ikitərəfli ticarətdə milli valyutadan istifadə edilsin. Lakin görünür, Azərbaycan buna getməkdə tərəddüd edir... Bəs görəsən, Azərbaycanın yaxın qonşuları ilə alqı-satqı əməliyyatlarında milli valyutadan istifadə etməkdən imtina etməsinin kökündə nə dayanır?

Milli Məclisin **İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov** bildirdi ki, Rusiya və Türkiyə öz aralarında lirə və rublla alış-veriş edirlərsə, bunu hansısa bir valyuta ilə bağlı olaraq edirlər: "Hansısa valyutaya əsaslanmadan mümkün deyil. Rublun qiymətini və ya lirənin qiymətini bilmək üçün onu ya dollara, ya avroya, ya da funt-sterlinqə bağlamalısan. Ödəmə onsuz da aparılır, ya dollarla, ya rublla- elə də fərq etmir. Onlar milli valyuta ilə ödənişlər edirlər, burada bir problem yoxdur. Ancaq bu iki ölkə dollar və avronu da dövriyyədən çıxartmır. Bu çox çətin prosesdir. Dolları və ya avronu dövriyyədən çıxartmaq və ikitərəfli müqavilələrdə yalnız milli valyutadan istifadə etmək üçün on illərlə vaxt lazımdır. Bütün dünyada hazırda ticarət dollar və avro ilə aparılır. Milli valyuta ilə alqı-satqı da ya dolların qiymətinə, ya da qızılın qiymətinə bağlanmalıdır. Bu elə bir dönərli valyutaya bağlanmalıdır ki, dünyada qəbul olunsun".

**İqtisadçı ekspert Rəşad Həsənov da vurğuladı k, bu çox mürəkkəb bir mexanizmdir:** "Dünyada buna yanaşmalar davamlı olaraq Çin, İran və Rusiya kimi ölkələr tərəfindən gündəmə gətirilir. Son dövrlər Türkiyə bu istiqamətdə daha da aktivləşib. Xüsusilə də Qərb və ABŞ-la münasibətləri korlandıqdan sonra bu meyllər daha çox nəzərə çarpır. Bu kimi ölkələr belə çıxışları iki prizmadan edirlər: birincisi, milli valyutaları xarici valyutalar qarşısında duruş gətirməyib dəyərini itirdikdə, ikincisi isə qarşılıqlı olaraq siyasi narazılıqlar və konfliktlərin mövcud olduğu dövrlərdə. Amma ümumiyyətlə, bu günə qədər bu kimi yanaşmalar effektiv olmayıb".

**İqtisadçının sözlərinə görə, bu yanaşma daha çox sahibkarlar üçün risk yaradır:** "Təsəvvür edir ki, bu gün azərbaycanlı sahibkar İrana həmin ölkənin milli valyutası olan tümənlə məhsul satır və razılaşmaya əsasən bu tümənlə ödəniş 3 aydan sonra ölkəyə göndəriləcək. 3 aydan sonra tümən dəyərini itirir. Kim nəzarət edəcək? Əlbəttə ki, heç kim. Və ya Rusiya rublu bir il ərzində dəyərini 120 faizdən çox itirmişdi. Azərbaycan manatına da oxşar yanaşmanı tətbiq etmək olar. Türkiyəli və ya iranlı sahibkar necə inana bilər ki, Azərbaycan valyutası qısa müddət ərzində kəskin dəyərsizləşməyəcək. Bu ölkələrdə valyutanın arxasında daha çox resursun dayanması, resurs bazarının konyukturuna uyğun olaraq məzənnənin kəskin dəyişməsinə gətirib çıxarır. Və ya 3-cü bir ölkə ilə ticarət edən zaman həmin vəsaitlər problem yaradır. İranla edilən ticarət zamanı əldə edilən tümənlə biz Almaniyadan texnika almaqda çətinlik çəkəcəyik. Sahibkar məcbur olacaq ki, bunu xarici valyutaya çevirsin. Bu baxımdan mən düşünmürəm ki, belə avantürist yanaşmalara qoşularaq milli valyutalarla İran, Türkiyə, Rusiya kimi ölkələrlə ticarət etməyə dəyər. Bu, sahibkarlar üçün risk yaradır".

❑ **Nərgiz LİFTİYEVA**

# Yağın qiyməti ucuzlaşmaq əvəzinə bahalaşır-əks prosesin səbəbi

## Dekabrın əvvəlindən kərə yağının idxalına qoyulan gömrük rüsumu 3 dəfə azaldılacaq; satıcılar "ucuzlaşma o vaxt olacaq ki, baha qiymətə aldığımız yağları 3 aya tam satıb qurtaraq"

**Dekabrın əvvəlindən kərə yağının idxalına qoyulan gömrük rüsumu 3 dəfə azalacaq. Hazırda isə yağların qiymətində heç bir dəyişiklik yoxdur. Gömrük rüsumunun 15 faizdən 5 faizə düşəcəyini eşidənlər bir müddət sonra yağların qiymətində ucuzlaşma olacağını gözləyir. Ancaq satıcılar isə yaxın gələcəkdə bunun baş verməyəcəyini, əksinə, bayramqabağı bahalaşma olacağını deyirlər.**

Mağazalarda apardığımız müşahidələr deməyə əsas verir ki, yağların qiymətində qəpiklə də olsa, artıq müəyyən qədər artım var, nəinki azalma. Satıcılar bayramqabağı hər zaman olduğu kimi yenə də bahalaşma olacağını və bunun yağın qiymətində də öz təsirini göstərəcəyini deyirdilər.

**Satıcı Kənan Əliyevin sözlərinə görə, yağın qiymətində fevral ayından ola bilsin ki, müəyyən endirim olsun:** "Bu yağlar gömrük rüsumu ucuzlaşmadan gətirilən yağlardır. Yağ alıcıları az olduğu üçün anbarda da hələ xeyli yağlar qalıb. Onlar 3 aya ancaq satılar. Biz bunu baha qiymətə almışıqsa, necə ucuz sata bilərik?! Yalnız o vaxt ucuzlaşacaq ki, baha qiymətə aldığımız yağlar tam satılıb qurtarsın. Bundan sonra yeni gömrük qiymətləri ilə alınan yağlar ucuz satılacaq. Təbii ki, ona qədər gömrükdə qiymətlər yenə qalxmasa... Ancaq yeni gömrük qiymətlərinə görə təxminən indiki qiymətlə fərq elə də böyük olmayacaq. Yağdan asılı olaraq 50 qəpik 1 manat arası ucuzlaşma ola bilər".

Qeyd edək ki, daha çox satılan kərə yağlarının hazırkı qiymətləri belədir: "Best Cow" 18 manat, 45 qəpik, "Wellington" 17 manat 96 qəpik, "West Gold" 18 manat 38 qəpik, "Anchor" 18 manat 38 qəpik, "Fermer Lyuks" 6 manat 70 qəpik, "Qolden Kraun" 17 manat 75 qəpiyə satılırdı. Paçkada olan "Prezident" 8 manat 75 qəpiyə, "Doyaruşka" 4 manat 45 qəpiyə, "Valio" 2 manat 85 qəpiyə satılır. Xaricdən gətirilən yağlarla yanaşı yerli kərə yağlarının da qiymətində artım müşahidə edilir. Bunun isə səbəbi son 6 ayda südün bahalaşması ilə izah edilir.

Yağlarla yanaşı ətlərin də qiymətində 1-2 manat endirim olması ilə bağlı əhali arasında söhbətlər dolaşırdı. Ancaq müşahidələrimiz bunun da yalan olduğunu göstərdi. Ətin qiyməti yalnız bir sıra rayonlarda 50 qəpik civarında ucuzlaşıb. Bir sıra ekspertlər xaricdən gətirilən ətlərin sayı artdığı üçün yerli ətlərin qiymətinin ucuzlaşacağı proqnozunu verirdilər. Bazarlarda Ukraynadan gətirilmiş dondurulmuş ətlər yer almaqdadır. Bu ətlər yerli ətdən dəfələrlə ucuz olduğu üçün alıcıları da kifayət qədərdir. Hazırda marketlərdə ətlərin qiyməti bu cürdür: sümüklü dana əti 10 manat 70 qəpik, dana əti-qolu 13 manat 50 qəpik, dana beli 14 manat 65 qəpik, farş 10 manat 20 qəpik, quzu əti 11 manat 80 qəpiyə satılırdı. Ət dükanlarında isə dana əti 11 manata satılır.

**Qəssab Elman Məmmədov deyir ki, ətin qiyməti ucuzlaşmayıb:** "Bahalaşan nəsə ucuzlaşa bilməz. Hələ ki qiymətlərdə bir dəyişim yoxdur. Yeni il qabağı ola bilsin ki, 20-50 qəpik arası bahalaşma olsun".

**Ukraynadan gətirilən ətlərə gəlincə isə satıcı onların Hindistandan gətirildiyini dedi:** "O ətləri yalnız "vosmoy bazarı"ndan tapmaq olar. Çox ucuzdur. Ukrayna əti adı altında satılsa da, əslində Hindistandan gətirilir. Ona görə də ucuzdur. Onu rulon şəklinə salıb, dondurub elə satırlar. Bu ətlərin həqiqətən dana əti olub olmadığını və ya keyfiyyəti barədə nəsə deyə bilmərəm. Amma əhali o ətləri alarkən atalarımızın "ucuz ətin şorbası olmaz" misalını xatırlasa pis olmaz".

Qeyd edək ki, nəinki ətin və yağın, yumurtaların da qiymətində bahalaşma vardı. Belə ki, yumurtanın qiyməti də hazırda 15 qəpiyə, 15 dənəlik bağlama 2 manat 25 qəpiyə, kənd yumurtasının 15 dənə bağlaması isə 3 manat 50 qəpiyə satılırdı. Göründüyü kimi, yumurtanın da qiyməti qəpik-qəpik artaraq 9 qəpikdən, 15-20 qəpiyə qədər gəlib çatıb. Əhalinin o qədər də nəzərinə çarpmayan qəpik-qəpik artımın bir müddət sonra nəticəsinə baxdıqda əslində nə qədər fərq olduğunu görərik.










**İqtisadçı ekspert Natiq Cəfərli hökumətin verdiyi qərarın zamanlamasının düzgün olmadığını dedi:** "Yaxın zamanda heç bir ucuzlaşma olmayacaq. Dekabrın əvvəlindən sonra ölkəyə daxil olacaq malların gömrük rüsumu 15 faizdən 5 faizə endiriləcək. Yəni bu da qiymətlərə təqribən 50 qəpik-1 manat civarında təsir edə bilər. İndi də ölkəyə gətirilən məhsulların bazara çıxmasını nəzərə alsaq, yaxın gələcəkdə hətta 50 qəpiklik 1 manatlıq endirimin də tezliklə bazara yansımasını görməyə bilərik. Hökumət tərəfindən bu qərarın verilməsinin zamanlaması yaxşı deyil. İllərdir ki, bu davam edir. Ona görə də mən düşünmürəm ki, tezliklə gömrük rüsumunun 15 faizdən 5 faizə çəkilməsi bazarlara həmən təsir göstərməyəcək. Bir müddət sonra ola bilər ki, bazarlarda bunun müəyyən dərəcədə təsirini görək. Amma təsirin həcmi böyük olmayacaq. Bayaq da qeyd etdiyim kimi, bu təsir 50 qəpik-1 manat civarında olacaq".

**Ətlərin qiymətinə gəlincə, ekspert xaricdən gətirilən ətin həcminin ötən ilə nisbətən iki dəfə artdığını bildirdi:** "Yerli ətin qiymətində heç bir ucuzlaşma yoxdur. Ən azından Bakı şəhərində ətin qiymətində ciddi bir dəyişiklik yoxdur. Amma bəzi regionlarda ola bilər ki, 50 qəpik, 1 manat civarında təsir göstərsin. Bunun da iki səbəbi var. Bir səbəbi xaricdən gətirilən ət ola bilər. Xaricdən gətirilən ətin həcmində keçən ilə nisbətən iki dəfə artım var. Bu da təbii ki, öz təsirini göstərir. İkinci amil isə alıcılıq qabiliyyətidir. Yəni ətin qiymətini nə qədər çox bahalaşdırırsansa, alıcılıq qabiliyyəti aşağı olduğundan daha az ət almağa məcbur olursan".

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**

**Kişilər!!! Diqqət!!! Axırıncı şans!!!**

**Əgər sizə Azərbaycanda, xaricdə kömək edə bilməyiblərsə, onda**
**Dr. Vaiz Səmədov sizə komək edə bilər**

* Cinsi zəiflik
* Cinsi marağın azalması
* Vaxtından tez toxum ifrazatı
* Toy gecəsinin uğursuzluqları
* Prostatitlər (vəzin böyüməsi)
* Prostat vəzinin düyünlü adenoması
* Sonsuzluq
* Sidik aktların pozulmaları
* Gərginlik, yuxusuzluq, yaddaşın pozulması və digər kişilərin şikayətləri.

**Oğlan uşaqlarında və yeniyetmələrdə**

* Enurez,
* Saçların tökülməsi,
* Sızanaqlar,
* Cinsi orqanların inkişafdan geri qalması (8-10 yaşından sonra).

**Doktor V.Səmədova saat 11:00-dan sonra, (050) 213-88-05 nömrəsi ilə əlaqə saxlamaq olar.**

Həkimin TV çıxışlarını youtube.com və facebook.com-da izləyə bilərsiniz.



## Minnətdarlıq!

**Nəbiyeva Yaylagülü Bəy qızı Səhiyyə Nazirliyinin Akademik Mustafa Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin baş həkimi Yusif Əliyevə üzərində həyata keçirdiyi cərrahiyyə əməliyyatını uğurla başa çatdırdığına görə minnətdarlıq edir.**

**Yaylagülü Nəbiyeva redaksiyamıza göndərdiyi məktubda yazır: "4 dəfə əməliyyat keçirmişəm. 5-ci əməliyyatım həyatım üçün olduqca böyük risk təşkil edirdi. Bundan əlavə, bir neçə xəstəxanaya müraciət etsəm də mənə çox böyük qiymətə - 5 min manata başa gələcəyini deyirdilər. Amma Akademik Mustafa Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin baş həkimi Yusif Əliyev həm maddi, həm də tibbi baxımdan bu əməliyyatın uğurla yekunlaşmasını təmin etdi.**

**Hazırda özümü çox yaxşı hiss edirəm və bundan sonrakı həyatım üçün məhz Yusif həkimə təşəkkür edirəm".**



# «Bakcell» şirkəti developerlər üçün "Pitçinq" üzrə master-klass təşkil edib

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkəti "AppLab" proqramının iştirakçısı olan developerlər üçün daha bir təlim təşkil edib.**

**"Pitçinq" üzrə master-klassda (Qısa təqdimat üzrə təlim) iştirakçılara qısa təqdimatların üç əsas üsulu olan "the high-concept pitch" (startap ideyasının bir qısa cümlə ilə ifadə etmək bacarığı), "the elevator pitch" ("lift təqdimatı" üsulu) və "the pitch deck" ("Power Point" və s. alətlər vasitəsilə qısa təqdimat) barədə ətraflı məlumat verilib.**

**"The high-concept pitch" adlanan ilk üsul startapın ideyasını bir cümlə vasitəsilə ifadə etməkdən ibarətdir. Bu üsul sayəsində şirkət barədə məlumat dostlar, müştərilər və investorlar tərəfindən daha asan şəkildə yayıla bilər. Applab iştirakçılarının təlim zamanı öyrəndikləri digər təqdimat üsulu "the elevator pitch" ("lift təqdimatı" üsulu) adlanır. Bu üsulun əsas mahiyyəti məhsul və komanda barədə məlumatın müvafiq auditoriyaya 30 saniyə ərzində çatdırılmasından ibarətdir. Bu kimi təqdimat növündən liftdə və yaxud növbədə dayanarkən istifadə oluna bilər. Digər təqdimat üsulu isə "the pitch deck" adlanır ki, bu da biznes-plana bənzər bir təqdimat növüdür. Bu təqdimat əsas məqsəd, xülasə, komanda barədə məlumat, əsas problemlər və onların həlli yolları və s. kimi hissələrdən ibarətdir.**

**""Pitçinq" üzrə master-klass sayəsində mən təqdimat etmə sənətinin incəliklərini daha yaxşı başa düşürəm. Uğurlu təqdimat etmək üçün sadəcə gözəl danışıq qabiliyyətinə malik olmaq kifayət deyil", deyə "CineMania.az" layihəsinin təsisçisi Cavid Axundov bildirib.**

**"Applab" proqramıının iştirakçısı olan "Buket.al" startap layihəsinin sosial media üzrə mütəxəssisi Vəfa Məmmədzadə isə "Təlim zamanı mən bir neçə yeni termin ilə tanış olaraq satış sahəsində yeni yanaşmalar və qısa təqdimat üsulları barədə ətraflı məlumat almışam. Təlimin ən maraqlı hissələrdən biri isə təlimçilərin bu mövzu ilə bağlı real həyatdan götürülmüş misalları və şəxsi təcrübələri oldu", deyə bildirib.**

**Qarşıdakı aylar ərzində «Bakcell» şirkəti developerlər üçün blokçeyn (blockchain) texnologiyası, layihə idarəetməsi və s. mövzularda treninqlər də təşkil edəcəkdir.**

**"AppLab" regional səviyyədə ideyaların, mobil tətbiqlərin və texnologiyaların pilot variantından istifadəyə tam hazır məhsul variantınadək çatdırılmasında seçilmiş developerlərə kömək etmək üçün nəzərdə tutulan sürətləndirilmiş icra moduludur.**

YENİ MÜSAVAT
N 251 (6855) 1 dekabr 2017




# İradəvi təkamülün zirvəsi olan insan

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Əziz Peyğəmbərimizin (s) mövlud günləri yaxınlaşır. Bir Elçinin ki, bütün öncəki peyğəmbərlər (ə) bəşəriyyəti onun barəsində xəbərdar etmişlər. Bəşəriyyətə bir Rəsul (s) göndərilmişdir ki, bütün öncəki peyğəmbərlərə (ə) xas müsbətliklər onda cəm olmuşdu, özü də ən kamil səviyyədə.**



**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**

Allah Təala Həzrət Peyğəmbəri (s) göndərməklə insanları haqq yola dəvət etmək, düzgün yola yönəltmək, bələdçilik etmək kimi mübarək bir vəzifəni onun üzərinə qoymuşdur. Mütəal Allah insanı digər varlıqlardan fərqli yaratmışdır. Ona əql, düşüncə, məntiq, iradə azadlığı, seçim azadlığı kimi keyfiyyətlər əta etmişdir. Allah Təala insana pisi-yaxşını, xeyri-şəri anlamaq qabiliyyəti vermişdir. Və insana bildirmişdir ki, "sən mükəlləfsən, cavabdehsən". İnsanın digər məxluqatdan fərqi bundadır.

## Yaranmışın əşrəfi olan insan

Heç kəs daşdan, torpaqdan, bitkidən, heyvandan "nə üçün belə etdin, elə etmədin?" - deyə soruşmur. İnsanı yaranmışın əşrəfi edən məhz budur - seçim qabiliyyəti, iradə azadlığı. Və insan Qiyamət günü etdiklərinin sorğu-sualına çəkiləcək, əməllərinə görə cavab verəcək. Zərrədək yaxşının və zərrədək pisin əvəzini görəcək insan. Özü ilə bağlı, ətrafı ilə, mühiti ilə bağlı nə etdiyinin sorğusuna çəkiləcək. Və insanın sorğu-sualı, ona çatdırılan məlumatın müqabilində olacaq.

İnsanı məlumatlandırmadan onu sorğu etmək, ona düz yolu göstərmədən mühakimə etmək Böyük Yaradanın hikmətinə zidd olardı, ədalətinə uyğun gəlməzdi. Odur ki, zaman-zaman Elçiləri göndərməklə müxtəlif qövmlərə, xalqlara, cəmlərə İlahi həqiqət çatdırılmış, hüccət tamam edilmişdir. Rəsuli-Əkrəm (s) isə bütün bəşəriyyətə göndərilmiş, Qiyamətədək halal-haramı, xeyir-şəri insanlara bəyan etmişdir.

Bütün peyğəmbərlər (ə) eyni hədəfə vurmuş, təkallahlığa dəvət etmiş, bütlərə, xəbisliklərə, pisliklərə, mənfiliklərə tapınmaqdan çəkindirmişlər. İnsanları əxlaqa, düzgünlüyə, yaxşılıqlara çağırmışlar. Nübuvvətin missiyası budur: insanları sapmaqdan qorumaq və düzgün yolu göstərmək. Və Xatəmül-ənbiya - peyğəmbərlərin sonuncusu olan Rəsuli-Əkrəm (s) bu missiyanı tamamlayır və kamala çatdırır.

Əziz Peyğəmbərimiz (s) insanın nəzəri həyatında da, əməli həyatında da bütün nöqtələri qoyur. Peyğəmbərimizin (s) dünyaya gəlişi də bu mənada xüsusi əhəmiyyət kəsb edir - bəşəriyyət sonuncu erasına - Qiyamətdən öncəki eraya daxil olur.

## Tarixi şəxsiyyət

Çox önəmli bir mətləbə də toxunmaq lazımdır. Rəsuli-Əkrəm (s) yeganə peyğəmbərdir ki, tarix onun mövcudiyyətini birmənalı olaraq təsdiqləyir. Yəni, bütün öncəki peyğəmbərlər (ə) barədə məlumatlar müxtəlif rəvayətlərdə, dini mətnlərdə gəlmişdir, əsasən burada tarixi mənbələrə istinad yoxdur. Qurani-Kərim onları təsdiqlədiyi üçün bütün inanclı insanlar qeyd-şərtsiz bütün öncəki peyğəmbərləri (ə) haqq İlahi Elçilər olaraq qəbul edir.

Amma iman gətirib-gətirməməsindən asılı olmayaraq, bütün insanlar Rəsuli-Əkrəmi (s) ən azı bir tarixi şəxsiyyət kimi qəbul edirlər. Hamı qəbul edir ki, Məkkə şəhərində yaşayan Abdulla adlı bir Allahpərəst insanın və Aminə adlı bir təqvalı xanımın Muhəmməd (s) adlı bir övladı dünyaya gəlir. Bütün mətləblər təsdiq edir ki, valideynləri dünyadan çox tez köçən bu mübarək insanı, babası Əbdül-Müttəlib himayəsinə götürür. Həzrətin (s) 40 yaşında ikən öz peyğəmbərlik missiyasına başlaması, 13 il Məkkədə olmazın müsibətlər şəraitində İlahi həqiqətləri insanlara çatdırması, sonra Mədinəyə hicrət edərək burada ədalət və həqiqət üzərində bərqərar olan bir İslam camiəsi qurması da məlum faktlardandır.

Bu, bir tarixdir. Mifologiya, folklor səviyyəsində, əfsanə səviyyəsində olan məsələ deyildir, tarixi gerçəkliklərdir. Sözsüz ki, bu amil də bir çoxlarının həqiqət yolunu seçməsində öz müsbət rolunu oynayır.

## İlahi vəhyin əmini

Həzrət Əlidən (ə) bir mübarək hədis nəql edilir: «Allah Təala Həzrət Muhəmmədi (s) aləmlər üçün çəkindirən və Quranın göndərilməsi üçün bir əmin olaraq məbus etdi (vəzifələndirdi)».

Beləliklə, mübarək hədisdə bildirilir ki, Həzrət Peyğəmbər (s) insanları, bəşəriyyəti haqq yola dəvət edən, haqqı təbliğ edən, insanları bütün eybəcərliklərdən, mənfiliklərdən, pisliklərdən çəkindirən, bu işlərin pis aqibətlə sonuclanması haqqında xəbərdar edən bir Elçidir (s). Eyni zamanda, Peyğəmbəri-Əkrəm (s) Allah əmanətinin əmini kimi tanıtdırılır. Allah Təala Qiyamətədək dəyişməyən, haqq olan sonuncu Kitabını göndərmişdir və Peyğəmbəri (s) İlahi vəhyin əmini, əmanətin qoruyucusu qərar vermişdir.

Öncə biz İlahi hikmət və ədalət mövzusuna qısaca toxunduq. Bildirdik ki, insanı kamala yetişmək üçün xəlq edən Uca Allah, ona mütləq hidayət üçün keçinməz, zəruri və kafi məlumatı çatdırmalı idi. Hətta mübarək dinimiz, bunu Mütəal Allahın bir vədəsi olaraq təqdim edir. Və insanlara çatdırılan bu məlumat, mütləq əmin vasitələrlə ötürülməlidir, əks təqdirdə yenə İlahi hikmətə zidd olardı - nə mənası var o məlumatın ki, ötürüləndə təhrif olunacaq?

Əslində peyğəmbərlərin (ə) hamısının məsumluğu da məhz bu məsələdən qaynaqlanır - İlahi kəlamı insanlara çatdıran insan, mütləq məsum - günahsız, səhvsiz, xətasız olmalıdır. Mübarək hədisdə nəql edilən **"Quranın göndərilməsi üçün əmin olaraq məbus etdi"** kəlməsi də bu məsələyə işarədir. Əmin - yəni, əmanətdə sadiq, hər bir halda əmanəti qoruyan, ünvanına çatdıran.

## Təqva əhlinin rəhbəri

Həzrət Əlidən (ə) nəql edilən digər mübarək hədisdə bildirilir: **"Sübhan /vəsfedilməz, təkrarolunmaz/ olan Allah Təala Həzrət Muhəmmədi (s) Öz kərəmi, lütfü ilə onun olduğu zirvəyə çatdırdıqda, o müqəddəs vücudu (Həzrət Peyğəmbəri (s)) ən üstün, ən ali mədənlərdən əmələ gətirdi. Əkmək üçün ən əziz olan köklərdən yaratdı. E Peyğəmbərin itrəti (Əhli-Beyti) - ən yaxşı Əhli-beytlərdəndir, şəcərəsi - ən yaxşı şəcərələrdəndir ki, hərəmdə (Məkkədə) bitib və inkişaf edib. Kərəm, şərafətli olan o şəcərə (ağac) üçün şaxələr, budaqlar var ki, ucalıq və meyvələri baxımından tükənməzdir. O Həzrət - təqva göstərənin rəhbəridir, hidayət olmuş kəsin görmə vasitəsidir. Bir çıraqdır ki, nuru parlayır, bir ulduzdur ki, işığı açıq-aydın və aşkardırE Yaşam tərzi - etidal, sünnəti - inkişaf, kəlamı - haqqı batildən ayıran, hökmü - ədlin özüdür".**

Çox az mövzular tapmaq olar ki, bu cür qısalıqla belə böyük mətləblər çatdırılır. Hədisdə İmam Əlinin (ə) gözəl fəsahət və bəlağəti ilə Həzrət Peyğəmbərə (s) xas mübarək cəhətlər açıqlanır. Öncə zərif bir müqayisə aparılır. Necə ki, qiymətli daş-qaşı, qızıl-gümüşü mədənlərdən çıxarırlar, Allah Təala Peyğəmbərimizi (s) varlıq aləminin, yaradılış aləminin ən üstün, ən gözəl gizlinlərindən üzə çıxarmışdır. Peyğəmbərimizin (ə) ən nəcabətli, Allahpərəst insanların nəsəbindən seçilməsi vurğulanır. Digər tərəfdən, mühitin insanın müqəddəratında olan rolu vurğulanır; Məkkənin məxsusi bir müqəddəsliyinə işarə edilir.

Həzrət Peyğəmbərin (s) və Əhli-Beytin (ə) məqamına gəldikdə isə burada yalnız iradəvi təkamüldən söhbət gedə bilər. Belə ki, bu mübarək insanlar Allaha edilən xalis ibadətləri, təvəkkülləri, kamala qovuşmaq səyləri sayəsində malik olduqları o üstün məqama yetişmişlər. Hədisdə işarə edilir ki, təqvada, şücaətdə, kəramətdə, mərifətdə, ürfanda, hikmətdə, şərafətdə Rəsulun (s) itrətinin tayı-bərabəri yoxdur. Və bu itrətin (Əhli-Beytin) səmərəsi də çox bərəkətli və tükənməzdir. Bu mübarək nəsil ucalıq və təqva baxımından yenilməzdir.

Birmənalı olaraq hədisdə vurğulanır ki, Rəsuli-Əkrəm (s) - müttəqilərin, təqva əhlinin rəhbəridir. Yolunu azmışlar onun nurundan məhrum olar, azğınlar onun göstərdiyi yolu görməzlər. O Həzrət (ə) - hidayət olmuşların görmə vasitəsidir. Düzgün yolu seçmişlər onun vasitəsilə, onun gətirdiyi təlim, təbliğ etdiyi dəyərlər vasitəsilə dünyaya baxarlar. Və doğru yolu görmək istəyənlər üçün Həzrət (s) - açıq-aydın yolgöstərəndir, amma azmışlar onun nurunu görməkdən məhrum olarlar.

## Haqla batili ayıran

Peyğəmbərimizin (s) yaşam tərzinin mötədil, "qızıl orta xətt" üzrə olması vurğulanır. Nə ifrat var burada, nə də ki, təfrit. Həyat tərzi - inkişafdır, daim tərəqqidir. Durğunluq yoxdur onun yolunu gedənlərdə. **"Bu günü dünənindən fərqlənməyən bizdən deyil"** - deyir dinimiz. Daima inkişaf, vücudi tərəqqi var burada.

Rəsuli-Əkrəmin (s) haqla batilin ayırd edilməsində heç bir məchulluq qoymamışdır. Mübarək kəlamları yaxşını pisdən seçmək istəyən üçün bir örnək, bir gerçək proqramdır.

Buyurduqlarında zərrədək çaşqınlıq və sapmaq üçün zəmin olmaz. Hökmləri - açıq-aydın, ədalət üzərindədir, ədalətin özüdür. Ədalət bu hökmlərlə, bu təlimlə anınar.

Təbərrük üçün Allahın Peyğəmbərindən (s) nəql edilən hədislərə nəzər salaq:

Rəsuli-Əkrəm (s) buyurur: **"Qiyamət günü bəndə öz yaxşı əməllərinə görə sad halda məhşər ayağına çəkilər. Bir kişi gələr və deyər: "Ey Rəbbim! Bu bəndə mənə zülm etmişdir". Bu zaman həmin bəndənin savabından götürülər və ədalət tələb edən kişinin savablarına əlavə edilər. Bu minvalla, zülm etdiyi insanlar bir-bir gəlib öz haqlarını tələb edərlər. Axırda, bəndəyə bir savab və xeyir əməl də qalmaz. Bundan sonra kim gəlib öz haqqını tələb etsə, onun günahlarından götürülüb həmin bəndənin günahlarına artırılar. Beləliklə, bəndə cəhənnəm oduna daxil olanadək insanların haqqı ondan götürülər».**

**"Heç kəs qonaqların xatirinə özünü imkanından artıq zəhmətə salmamalıdır".**

**"Qardaşının söz və əməllərində bir üzr axtar və əgər tapmasan, özün bir üzr düzəlt".**

**"Allaha sanki Onu görürsənmiş kimi ibadət et. Çünki, sən Onu görməsən də, O ki, səni görür".**

**"Kim Allahı narazı edən bir işi görməklə hansısa rəhbəri razı salsa, Allahın dinindən çıxmışdır".**

**"Allah Təala asta səsi sevər və uca səsə (qışqıra-qışqıra danışmağa) nifrət edər".**

**"Kim məzlumun haqqını zalımdan alarsa, cənnətdə mənə dost və yoldaş olar".**

**Allahın Peyğəmbəri (s): "Allahın Peyğəmbəri (s): "Rəbbiniz buyurur: "Ey Adəm övladı! Özünü Mənim ibadətimə həsr et ki, sənin qəlbini ehtiyacsızlıq, əllərini də ruzi ilə doldurum. Ey Adəm övladı! Məndən uzaqlaşma ki, qəlbini yoxsulluq və əllərini çətinliklə dolduraram"".**

**"Alimə baxmaq - ibadətdir, ədalətli rəhbərə baxmaq - ibadətdir, ata-anaya mehriban və qayğıkeş baxış - ibadətdir. Allaha xatir sevdiyin qardaşa baxmaq - ibadətdir".**

Allahın Peyğəmbəri (s) ağıllıları təsvir edərkən, buyurub: "Başqalarının azacıq yaxşılıqlarını çox sayar, özlərinin çox yaxşılıqlarını az bilərlər".

"Adil o şəxsdir ki, özü ilə necə rəftar edilməsini istəyirsə, camaatla da o cür rəftar etsin".

Allah Təala həqiqətən Rəsuli-Əkrəmlə (s) olanlardan, onunla yaşayanlardan, onun irsini yaşadanlardan qərar versin bizləri və bütün inanc əhlini, inşəallah!

**Allahım! Bizləri və bütün İslam camiəsini İlahi dəyərləri yaşadanlardan qərar ver!**

**Allahım, müqəddəs torpaqların tezliklə azad olmasını, çətinlikdə olanların müşküllərinin həll olmasını, xəstələrin şəfa tapmasını, əsirlikdə olanların azad olmasını, kasıb və ehtiyacılıların firavanlığa qərq olmasını, zülmün aradan getməsini nəsib et!**

**Allahım, dünyadan köçənləri Öz lütfün ilə bağışla!**

**Allahım, bu mübarək bayram xatirinə Vətənimizin və bütün müqəddəs Darül-İslam torpaqlarının üzərinə əmin-amanlığı və təhlükəsizliyi nazil et! Öz Höccətin olan Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f.) tezliklə zühur etməsi tofiqini Yer üzünə inayət et! Amin!**

# YENİ MÜSAVAT

## Son səhifə

N 251 (6865) 1 dekabr 2017




## Balaca qız paltaryuyan maşında qaldı

Çində yanğınsöndürənlər iki yaşlı qızı paltaryuyan maşından xilas ediblər. Bu barədə lenta.ru saytı xəbər verir. Xəbərdə qeyd edilir ki, insident Uçjun şəhərində yaşanıb. Zəng əsasında mənzilə gələn xilasedicilər paltaryuyan maşında ağlayan uşağı tapıblar. Onlar situasiyanı yerindəcə araşdırandan sonra qurutma barabanını maşından çıxarmağa nail olublar. Uşaq maşının içində təxminən 20 dəqiqəyə yaxın qalandan sonra xilas edilib. Qızcığaza hər hansı xətər dəyməyib.



## Gözəllik yarışmasına hicabla qatıldı, fenomen oldu

ABŞ-ın Minnesota ştatında keçirilən gözəllik yarışmasına çarşablı bir namizəd qatılıb. Podiuma çıxan 19 yaşlı Halima Aden gözəllik yarışmalarına başıbağlı qatılan ilk namizəd oldu. Yarışmanın aparıcısı podiumda gəzən Adeni anons edərkən onun tarix yazdığını deyib. Yarışmanın bikinili bölümünə də qapalı çimərlik geyimi ilə qatılan, bununla da yarımfinala çıxan Aden deyib ki, qalib gəlmək kimi bir qayğısı yoxdur. Keniyadakı mühacir düşərgəsində dünyaya gələn və 6 yaşında ikən ABŞ-a köçən Aden deyib ki, yarışmaya qatılmaqda xüsusi məqsədi olub: "Məqsədim müsəlman qadınlarla bağlı yanlış təsəvvürləri və qəlibləri aradan qaldırmaqdır. Kim olduğumu dünyaya göstərmək üçün gözəl bir platformadır. İstədiyim insanlara fərqli bir perspektiv göstərməkdir".

## Keçi ördək kostyumu geyindi, olay oldu

Polli ləqəbli xəstə keçi Amerikanın Nyu Cersi ştatında yaşayır. Onu internetdə məşhurlaşdıran isə ördək kostyumuna olan sevgisidir. Bu barədə metro.co.uk saytı xəbər verib. Goats of Anarchy təşkilatının sahibləri atılmış keçiləri yığır və onları ev heyvanları qismində saxlayır. Polli nevroloji problemlərdən, korluqdan və çəki çatışmazlığından əziyyət çəkire. Bundan başqa, bu keçi həddən artıq əsəbidir.



Bir dəfə sığınacağın sahibəsi supermarketə gedib və keçini də özü ilə götürüb. Onu mağazada satılan uşaqlar üçün ördək kostyumu maraqlandırıb. Sahibəsi həmin geyimi Polliyə tərəf tutanda o, ani olaraq sakitləşib. Pollini odeyala və ya futbolkaya bükəndə də ona yaxşı olur. Amma ördək kostyumu hamısından daha effektli olub. Pollinin İnstaqramdakı fotoları 15 min layk yığıb.

## Qadınlar ərə gedəndən 1 il sonra...

Hər 5 qadından 1-i ərə getdikdən sonrakı 1 il ərzində təxminən 9 - 10 kiloqram kökəlir. "The Daily Mail" qəzeti yazır ki, bu, 3 min ərdə olan britaniyalı xanım arasında aparılmış araşdırma nəticəsinə üzə çıxıb. Rəyi soruşulanların 42 faizi bildirib ki, "sadəcə, sərbəstləşdikləri", 22 faizi isə ərə getdikdən sonra kişilərin diqqətini cəlb etmək üçün "özlərinə əl qatmadıqları" üçün kökəldiklərini bildirib. Araşdırmaya qatılan xanımların dörddəbiri isə toy günü artıq arxada qaldığı üçün məyus olduqlarını, buna görə də çox yediklərini söyləyib.

Rəyi soruşulan hər 3 qadından 1-i bildirib ki, evliliyin ilk ilində onlar üçün sağlam qidalanma prinsiplərinə əməl etmək çətinlik yaradıb. Bir çoxları isə toya qədər beyinlərində gəlinlik paltarında gözəl görünmək arzusunun dolaşdığını və bu səbəbdən də qidalanmaya fikir verdiklərini etiraf ediblər. Araşdırma nəticəsində o da məlum olub ki, qadınların 21 faizi toydan sonra artıq çəki yığdıqları üçün ərləri ilə problem yaşayır.





## Gündə 2 qutu siqaret çəkən uşağın sonu...

İki yaşında ikən gündə 2 qutu siqaret çəkən uşaq 6 ildə bərbad hala gəlib. Ardi Rizal adlı uşaq gündə iki qutu siqaret çəkdiyinə görə dünyada tanınan bir uşaq halına gəlib. Medianın uşaq üzərindəki basqısı indoneziyalı Ardinin həyatına müsbət yöndə təsir edib və uşaq qısa müddət ərzində siqaretu atıb. Amma gündə çəkdiyi 40 siqaretdən vaz keçmək o qədər də asan olmadı. Balaca uşaq siqareti atandan sonra həddən artıq fast food yediyi üçün çəkisi artıb. 2010-cu ildə siqaret üstünə siqaret çəkən uşağın videosu internetdə sürətlə yayılıb. Hərəkətə keçən yetkililər Ardinin peşəkar yardım alması üçün səfərbər olub. Siqareti atan uşaq bu dəfə də fast food qurbanı olub. "Independent" qəzeti yazıb ki, uşaq siqareti atandan sonra şişmanlayıb. Ardi 6 yaşına girəndə dəhşət kök idi və səhhəti bir daha təhlükə altına girdi. Uşağın ailəsi dövlətdən yardım istədikdən qısa müddət sonra Ardi ilə özəl bir qidalanma mütəxəssisi məşğul olmağa başladı.




QOÇ - Səhər saatlarında müəyyən gərginliklə üzləşmə ehtimalınız olsa da, sonrakı müddəti uğurlu keçirəcəksiniz. Yeni təkliflər alacağınız da mümkündür. Bir sözlə, sürprizlərə hazır olun.

BUĞA - Gecə saat 01:39-dan Ay bürcünüzdə olduğundan emosiyalarınızı cilovlamalısınız. Əsas enerjini biznesə həsr edin. Çünki büdcənizi artırmaq və sövdələşmələr aparmaq üçün düşərli gündür.

ƏKİZLƏR - Mübahisəli bir təqvim yaşayacaqsınız. Təmkininizi qoruya bilməsəniz, ciddi münaqişələrə də cəlb oluna bilərsiniz. Odur ki, iş yerində və ailədə emosional çıxışlara son qoyun.

XƏRÇƏNG - Hər mənada uğurlu gündür, bir şərtlə ki, əsəblərinizi cilovlaya biləsiniz. Yalnız xeyirli şeylər arzulayın ki, sizə də xeyir gəlsin. Fəaliyyətdə uğurlarınız arta bilər.

ŞİR - Sağlamlığınıza fikir verin. Ulduzların düzümü fiziki xəsarətlər alacağınızı da istisna etmir. Tanış olmayan ünvanlara getməyin. Axşama yaxın sevindirici hadisələrin şahidi olacaqsınız.

QIZ - Ümumi gərginliyiniz kifayət qədər səngiyəcək. Ünsiyyətdə olduğunuz insanlarla, ələlxüsus da həmkarlarınızla davranışlarda mülayim olun. Perspektivli təkliflər ala bilərsiniz.

TƏRƏZİ - Yaxşı olar ki, ağır fiziki işlərə, ümumiyyətlə, fəaliyyətə ara verəsiniz. Əsas diqqətinizi istirahətə və gəzintilərə həsr edin. Gələcəyiniz üçün önəmli olan görüşlərdən yayınmayın.

ƏQRƏB - Səhhətinizi qorumağı bacarsanız, ulduzlar sizi əməlli-başlı sevindirəcək. Saat 13-15 arası maraqlı bir təklif alacağınız gözlənilir. Çalışın ki, imtina etməyəsiniz.

OXATAN - Göy qübbəsi varlanma ehtimalınızın yüksək olduğunu bəyan edir. Bu səbəbdən də ümid bağladığınız bütün istiqamətlərə baş vurun ki, kisəniz boş qalmasın. Yeni görüşlərdən yayınmayın.

OĞLAQ - Yeni xəbərlər yolunuzu gözləyir. Bütün astroloji göstəricilər nahardan sonra ağlınıza gətirmədiyiniz adamların sizə sürpriz vəd edəcəyini xəbər verir. Görüşləri təxirə salmayın.

SUTÖKƏN - Ailə üzvlərinizlə, xüsusən də sevdiyiniz adamla münasibətləri qaydasına salmaq istəyirsinizsə, güzəştə gedin. Unutmayın ki, həmişə kəsə yolla getmək olmur. Axşam qonaq gedin.

BALIQLAR - Nəzərə alın ki, ortalığa pulla bağlı problemləriniz çıxa bilər. Bu səbəbdən də adı çəkilən mövzuya kifayət qədər həssas yanaşmalısınız. Ciddi sövdələşmələrdə iştirakdan yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İş yerində bu 11 cümlədən istifadə etməyin



Forbes.com İş yerində deyilməyəcək 11 cümləni müəyyənləşdirib. Bunlar aşağıdakılardır: 1. Bu, ədalətli deyil. 2. Biz bunu hər zaman belə etmişik. 3. Problem deyil. 4. Bu, axmaq bir fikir ola bilər, amma axmaq bir sual verəcəm. 5. Bu, bir dəqiqəlik işdir 6. Bunu təcrübədən keçirəcəm 7. O, tənbəl və yaramaz biridir 8. Bu, mənim iş öhdəliklərimə daxil deyil 9. Bu, mənim səhvim deyil 10. Edə bilmərəm 11. Bu işə nifrət edirəm.

İş dünyasında bu cümlələr olduqca neqativ qarşılanır və işçiyə əlavə başağrısı yaradır. Çünki onların hər birində ya işçinin öz işinin öhdəsindən gələ bilməməsi, ya da bu işi sevməməsi ifadə olunur. Bunlar isə uğursuzluq yaradan amillər sırasındadır.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100